
№ 256 ISSN 1027-3875 31 oktyabr 2008

KHAZAR VIEW

XƏZƏR XƏBƏR



ELMİ-KÜTLƏVİ, BƏDİİ-PUBLİSİSTİK TOPLU

www.khazar.org

ELMİ-KÜTLƏVİ,
BƏDİİ-PUBLİSİSTİK
TOPLU

1995-ci ilin
yanvarından ayda 2 dəfə çıxır

Təsisçi:
XƏZƏR UNİVERSİTƏSİ

Baş redaktor:
Hamlet İSAXANLI

Baş redaktor müavini:
Əlirza BALAYEV

Redaksiya heyəti:
Camal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Cəmil HƏSƏNLİ
Bəhlul ABDULLA
Nizami CƏFƏROV
Əfqan ABDULLAYEV
İsmət ƏHMƏDOV

Rəssam:
Rafiq ƏBDÜLRƏHİMOV

Kompüter tərtibatçısı:
Əminə M.Rzaqızı
Fotomüxbir:
Xeyrulla HACƏLİYEV

Ünvanımız:
Bakı, Məhsəti küçəsi 11,
("Neftçilər" metrosunun yanı)
Faks: 498-93-79
Telefon: 421-79-16
421-10-93

Şəhadətnamə: 255
İndeks: 67178
Sifariş: 190
Tiraj: 3000

Müəlliflərlə
redaksiyanın mövqeyi
üst-üstə düşməyə bilər
Əlyazmalar geri qaytarılmır
Xəzər Universitəsi
mətbəəsində çap edilmişdir

SCIENTIFIC-POPULAR
LITERARY-PUBLICISTIC
COLLECTION

It has been publishing twice
a month since January, 1995

Founder:
KHAZAR UNIVERSITY

Editor-in-chief:
Hamlet ISAXANLI

Associate editor:
Alirza BALAYEV

Editorial member:
Jamal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Jamil HASANLI
Bahlul ABDULLA
Nizami JAFAROV
Afgan ABDULLAYEV
İsmat AHMADOV

Design by:
Rafig ABDULRAHIMOV

Computer graphics:
Amina M. Rzaqizi
Photoreporter:
Kheyrulla HACALIYEV

Address:
11 Mahsati str., Baku,
(near the "Neftchilar" metro)
Fax: 498-93-79
Phone: 421-79-16
421-10-93

Certificate: 255
Index: 67178
Order: 190
Copies: 3000

The opinions of authors
and editors
could be independent
Manuscripts are not returned
Published by
Khazar University Press

OXUYUN

Bu nömrədə



SƏNƏTİ ƏBƏDİ YAŞAYACAQ 11




ОТКРЫТЫЙ ДОСТУП К НАУЧНЫМ ПУБЛИКАЦИЯМ: ЭЛЕКТРОННЫЙ АРХИВ УНИВЕРСИТЕТА ХАЗАР 14



ПОЭЗИЯ РУМИ - ОБЪЕДИНЯЮЩАЯ СИЛА ЦИВИЛИЗАЦИЙ 20



Zərdüşt Əlizadə 22
Türkiyədə islam inqilabı mümkün deyil!



RİÇARD NİKSON 24
SİYASƏTÇİ DÜŞÜNMƏYİ BACARMALIDIR



USAQ DÜNYASI 35



Vasif SADIQLI 31
AŞIQƏLƏRİN PSİXOROBOTU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ANDİÇMƏ MƏRASİMİ



Oktyabrın 24-də Heydər Əliyev Sarayında yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Əliyevin təntənəli andiçmə mərasimi keçirilmişdir.

Sarayın bayram tərtibatlı salonuna Azərbaycanın dövlət və hökumət rəsmiləri, komitə və şirkət rəhbərləri, Milli Məclisin deputatları, siyasi partiyaların, ictimai təşkilatların, ölkə ictimaiyyətinin nümayəndələri, xarici ölkələrin səfirləri toplaşmışdılar.

Andiçmə mərasimində Gürcüstan Prezidenti Mixail Saakaşvili, Türkiyə Baş nazirinin müavini, dövlət naziri Cəmil Çiçək, Rusiya Prezidenti Administrasiyasının rəhbəri Sergey Narışkin, MDB İcraiyyə Komitəsinin sədri – icraçı katib Sergey Lebedev iştirak edirdilər.

Ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Əliyevin andiçmə mərasimi açıq elan olundu.

Silahlı Qüvvələrin əsgərləri Azərbaycan Respublikasının dövlət bayrağını və Azərbaycan Prezidentinin standartını təntənəli marşın sədaları altında səhnəyə gətirdilər.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev və Konstitusiya Məhkəməsinin hakimləri səhnəyə dəvət olundular.

Mərasim iştirakçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi hərarətlə, gurultulu və sürəkli alqışlarla qarşıladılar.

Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev yenidən Azərbaycan Prezidenti seçilmiş İlham Əliyevi Azərbaycan Respublikası Konstitusiyasının 103-cü maddəsinə uyğun olaraq, Konstitusiya Məhkəməsi hakimlərinin iştirakı ilə andiçməyə dəvət etdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əlini Azərbaycan Respublikasının Konstitusiyasının üzərinə qoyaraq and içdi.

Sonra Prezident müqəddəs Qurani-Şərifə əl basaraq and içdi.

Azərbaycan Respublikasının dövlət himni səsləndi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev andiçmə mərasimində geniş nitq söylədi.

Azərbaycanın dövlət bayrağı və Azərbaycan Prezidentinin standartı səhnədən aparıldı.

Bununla da andiçmə mərasimi başa çatdı.

AzərTAc

MALAYZİYA BEYNƏLXALQ İSLAM UNİVERSİTETİ İLƏ ƏMƏKDAŞLIQ

Oktyabrın 8-də Xəzər Universitəsinin rektoru professor Hamlet İsaxanlı Malayziya Beynəlxalq İslam Universitetinin xarici əlaqələr və innovasiyalar üzrə prorektoru professor Sano Koutoub Moustarnanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Bundan əvvəl Xəzər Universitəsinin rektoru professor Hamlet İsaxanlı, universitənin prorektoru professor Məhəmməd Nuriyev və bir sıra digər əməkdaşlarımız Malayziyada həmin universitetdə olmuş, universitetlər arasında tanışlığın əsası qoyulmuşdu.

Görüşdə universitetlərin əməkdaşlıq məsələləri müzakirə olunmuş, yaxın zamanda müvafiq sənədlərin imzalanması qərara alınmışdır.



QALAKTİKANIN 8 PLANETİ AZƏRBAYCANIN ADI İLƏ BAĞLIDIR

Bu məlumatı APA-ya Azərbaycan Milli Elmlər Akademiyasının N.Tusi adına Astrofizika Rəsədxanasının direktoru Əyyub Quliyev verib.

O bildirib ki, göy üzündə Azərbaycanla bağlı "Azərbaycan", "Şamaxı Astrofizika Rəsədxanası", "Nizami Gəncəvi", "Nəsirəddin Tusi", "Hüseyn Cavid", "Müslüm Maqomayev", "Sorin" (Azərbaycanda çalışmış rus alim) və "Əyyub Quliyev" asteroidləri var.

Kiçik planetlərə daha çox elm və incəsənət xadimlərinin adlarının verildiyini deyən Ə.Quliyevin sözlərinə görə, planetlərə siyasətçilərin adlarının verilməsi ilə bağlı müəyyən məhdudiyyətlər var. Siyasətçilərin adları asteroidlərə ancaq onların vəfatından 100 il sonra verilə bilər.

Asteroidlərə hansı adların verilməsinə isə Beynəlxalq Astronomiya İttifaqı nəzarət edir. Bu ittifaqın nəzdindəki "Kiçik planetlər və kometlər mərkəzi" təklif olunan adlarla bağlı müzakirələr aparıb qərar qəbul edəndən sonra həmin adlar kataloqa daxil edilir.

"TƏLƏBƏ HƏFTƏSİ"

Noyabrın 10-dan 17-dək Bakıda "Tələbə həftəsi" keçiriləcək. Bu barədə APA-ya gənclər və idman nazirinin müavini İntiqam Babayev bildirib. İ. Babayevin sözlərinə görə, 17 noyabr Beynəlxalq Tələbə Günü ilə əlaqədar keçirilən "Tələbə həftəsi"ni nazirlik silsilə tədbirlərlə qeyd edəcək. Noyabrın 8-də Bakıda fəaliyyət göstərən ali təhsil müəssisələrinin tələbələri arasında siyasi biliklər üzrə olimpiada, noyabrın 11-də tələbələr arasında "Sağlam həyat tərzi bizim amalımızdır" devizi altında kütləvi mədəni idman tədbiri və Azərbaycan Boulinq İdman Federasiyası ilə birgə boulinq üzrə ali və orta ixtisas təhsili müəssisələrinin tələbələrinin yarışı keçiriləcək.

İ. Babayev bildirib ki, "Tələbə həftəsi" çərçivəsində tələbə gənclər təşkilatları arasında "Ən yaxşı layihə" müsabiqəsi də keçiriləcək. Müsabiqədə seçilmiş 10 ən yaxşı layihə nazirlik tərəfindən maliyyələşdiriləcək.

VI BEYNƏLXALQ TÜRK DİLİ QURULTAYI

Oktyabrın 25-də Ankarada Türk Dil Kurumunun təşkilatçılığı ilə keçirilən VI Beynəlxalq türk dili qurultayı başa çatmışdır.

Oktyabrın 24-də qurultayın yekun iclası keçirilmiş, ölkəmizdən Ankaraya gəlmiş 20-dən çox alimin də təqdim etdiyi məruzələrin kitab şəklində nəşr olunması qərara alınmışdır. Vahid türk dilinin yaradılması istiqamətində səylərin artırılmasının zəruriliyi vurğulanmışdır.

Sonra 34 ölkədən gəlmiş 200 dilçi alim Türki Dil Kurumunun sədri, professor Haluk Akalının başçılığı ilə Karaman şəhərində olmuşdur. Türkiyədə türk dilinin mərkəzi sayılan Karamanoğlu Məlumat bəyin yurdunda qonaqların şərəfinə bayram şənlikləri təşkil edilmişdir.

Tədbirdə Haluk Akalın bildirmişdir ki, hazırda türk dili dünyada ən çox danışılan dillər arasında beşinci yerdədir. Bu gün 220 milyona yaxın insan türk dilinin müxtəlif qollarında danışır. Avropada, Amerikada, dünyanın digər yerlərində türk dili xarici dil kimi tədris olunur.

Great chance to study abroad!

Attention to all Undergraduate, PhD students and Post-doctors!

Erasmus Mundus External Cooperation Window program gives you a chance to study abroad.

This project is addressed to lot 5 that consists of Azerbaijan, Georgia and Armenia while the partners and associates from EU are from Greece, Portugal, Italy, France, The Netherlands, Latvia and Bulgaria.

The proposal targets to all groups (1, 2 & 3) and it provides opportunities of mobility to students (undergraduate & master), researchers (doctorate & post-doctorate) and academic staff. Priority is given on an impartial distribution of available positions to students with special needs and with socio-economical problems (without parents, divorced or ill parents, very low income, etc.), through a transparent selection process making use of a weight coefficient according to the category each candidate belongs to.

There are 3 target groups:
Target group 1 *– Students registered at Khazar University*
Target group 2 *– Students, registered in a higher education institution in Azerbaijan not included in the partnership or individuals who have already obtained a University degree or equivalent.*
Target group 3 *– Students having a refugee status or asylum beneficiaries (international or according to the national legislation of one of the European recipient countries) or where it can be proved that they have been object of unjustified expulsion from University on racial, ethnic, religious, political, gender or sexual inclination grounds*

Target group 1

From Khazar University	Number of students	Hosting Country	Duration of stay	Period of stay
Undergraduate	1	Latvia*	10 months	1/3/2009 - 31/12/2009
PhD	1	Greece	10 months	1/4/2009 - 31/1/2010
Post-doctorate	2	1-Portugal*; 1-Bulgaria*	6 months	1/4/2009 - 30/9/2009

* Rezekne's Augstskola, *Latvia*
* ATEI of Thessaloniki, *Greece*
* Polytechnic Institute of Viana do Castelo, *Portugal*
* University of Rousse, *Bulgaria*

Target group 2

From Azerbaijan	Number of students	Hosting Country	Duration of stay	Period of stay
PhD	2	1-Greece; 1-Italy*	10 months	1/4/2009 - 31/1/2010
Post-doc	1	Bulgaria	6 months	1/4/2009 - 30/9/2009

* University of Angers, *France*
* University of Tuscia, *Italy*

Target group 3

From Azerbaijan	Number of students	Hosting Country	Duration of stay	Period of stay
Undergraduate	1	Greece	10 months	1/1/2009 - 31/10/2009
PhD	1	Greece	10 months	1/4/2009 - 31/1/2010
Post-doc	1	Greece	6 months	1/4/2009 - 30/9/2009


Application form and necessary documents should be sent to **zamirova@khazar.org** by 15 November 2008.

For more information and application form please visit http://erasmusmundus5.teithe.gr

Or contact: Zumrud Amirova; Khazar University, 11 Mahsati, Career Center, room#212
Tel.: 421 10 93; 421 79 27
E-mail: zamirova@khazar.org

SİYASƏT

Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında Türkiyənin vasitəçiliyi



Türkiyə prezidenti Abdullah Gül amerikalı jurnalistlərlə görüşündə bəyan edib ki, "Biz Azərbaycanla Ermənistan arasında problemin həll olunmasını görmək istəyirik. Buna səmimi-qəlbdən inanırıq və bu işə öz töhfəmizi vermək istəyirik".

Abdullah Gül bildirib ki, Türkiyənin münaqişənin nizamlanması prosesində vasitəçilik etməsini o yox, Serj Sərkisyan irəli sürüb: "Bunu mən təklif etməmişəm. Bu təklifi İrəvanda görüşümüz zamanı Serj Sərkisyan səsləndirib. Mən isə dedim ki, Qafqazda hər hansı problem tək iki ölkəni deyil, bütün regionu öz ağuşuna alır. Və buna misal olaraq Gürcüstandakı son hadisələri göstərdim".

Abdullah Gül qeyd edib ki, Qafqaz regionunda hər hansı problemin həlli yalnız inkişafa səbəb ola bilər: "Mənim Ermənistana səfərimdən sonra əhəmiyyətli tərəqqi var. Ermənistana səfərimdən sonra Azərbaycanda oldum, öz həmkarım Əliyevlə görüşdüm. Daha sonra Nyu-Yorkda Azərbaycan, Ermənistan və Türkiyə xarici işlər nazirlərinin görüşü keçirildi". Türkiyə prezidenti həmçinin qeyd edib ki, Türkiyə və Azərbaycanı çox mühüm enerji kəmərləri birləşdirir: "Mən bütün bəyanatlarımda bildirmişəm ki, Ermənistanla problemlər həllini tapan kimi bu ölkə bütün layihələrdə iştirak edə bilər".

Türkiyənin BMT Təhlükəsizlik Şurasının keçici üzvü seçilməsi

Azərbaycan prezidenti İlham Əliyev Türkiyənin Birləşmiş Millətlər Təşkilatının (BMT) Təhlükəsizlik Şurasının keçici üzvü seçilməsi münasibətilə bu ölkənin prezidenti Abdullah Gülü və baş naziri Rəcəb Tayyib Ərdoğanı təbrik edib. Prezidentin mətbuat xidmətindən verilən məlumata görə, Türkiyənin beynəlxalq aləmdə artan rolunun birbaşa ifadəsi olan bu tarixi hadisənin həm də Türkiyə diplomatiyasının böyük uğuru olduğunu deyən Azərbaycanın dövlət başçısı BMT Baş Məclisində keçirilən seçkilərin bu cür nəticələnməsini dünyada və regionda sülhün, təhlükəsizliyin və sabitliyin bərqərar olması yolunda Türkiyənin ardıcıl səylərinə dünya birliyi tərəfindən verilən yüksək qiymət adlandırıb: "Qardaş Türkiyənin hər bir vətəndaşına və bütün türk dünyasına fərəh gətirən bu xoş xəbərin sevincini Sizinlə birlikdə yaşayır, Təhlükəsizlik Şurasında Türkiyənin qarşıdakı məsul fəaliyyətinin hər cəhətdən səmərəli olacağına inamımızı ifadə etmək istəyirəm".

Türkiyə baş nazirinin müşaviri: "Qollarımızı, qəlbimizi, beynimizi açıb, ermənilər gözləyirik"

"Biz ermənilərlə düşmən deyilik və onları özümüzə təhlükə saymırıq. Ermənistanla mümkün olan ən yaxşı münasibətlər qurmaq istəyirik. Los-Ancelesdə və ya Parisdə, harada yaşayırlarsa-yaşasınlar, dünyadakı bütün ermənilərlə yaxşı əlaqələr yaratmaq istəyirik. Onlardan da bu prosesə əngəl yox, dəstək gözləyirik. Qollarımızı, qəlbimizi, beynimizi açdıq, gözləyirik". APA-nın məlumatına görə, bu sözləri Türkiyə baş nazirinin xarici siyasət üzrə müşaviri Əhməd Davudoğlu "Hürriyet" qəzetinə açıqlamasında deyib.

Ermənistanın xarici işlər naziri Edvard Nalbandyanın BBC-nin türk redaksiyasına müsahibəsində dediklərinə münasibət bildirən Ə.Davudoğlu Ermənistanla bütün problemləri həll etməyə hazır olduqlarını söyləyib. Azərbaycanın bundan narahatlıq duyduğuna dair suala isə müşavir belə cavab verib: "Bizim ikitərəfli münasibətlərimiz düzəldikcə, bu, Dağlıq Qarabağ məsələsinə də təsir göstərəcək".

Xatırladaq ki, E.Nalbandyan BBC-nin türk redaksiyasına müsahibəsində Türkiyə-Ermənistan münasibətlərinin normallaşdırılması üçün heç bir maneənin olmadığını bəyan edib: "Əvvəlcə diplomatik əlaqə qurulmasını, sərhədlərin açılmasını gözləyirik. Sonra iki tərəf arasındakı bütün problemlərin müzakirə ediləcəyi hökumətlərarası komissiya yaradılmasına tərəfdarıq".

Rusiya, Azərbaycan və Ermənistan prezidentləri Rusiyada görüşəcəklər



APA-nın «RİA Novosti»-yə istinadən verdiyi məlumata görə, bu barədə oktyabrın 21-də İrəvanda səfərdə olarkən Rusiya prezidenti Dmitri Medvedyev mətbuat konfransında deyib.

"Ümidvaram ki, ən yaxın zamanda üç prezidentin görüşü keçiriləcək. Güman edirəm ki, bu görüş Rusiyada baş tutacaq", - deyə D.Medvedyev bildirib.

Dağlıq Qarabağ münaqişəsinin həllinə münasibət bildirən D. Medvedyev danışıqlarda irəliləyişin olduğunu, hər iki tərəfin müzakirələri davam etdirmək niyyətini bəyan etdiyini söyləyib. Ermənistan prezidenti Serj Sərkisyan da erməni tərəfinin danışıqların Dağlıq Qarabağın öz müqəddəratını təyin etməyə imkan verən "Madrid prinsipləri" əsasında davam etdirilməsinə hazır olduğunu bildirib: "Biz əminik ki, məsələ kompromis və danışıqlar əsasında həll oluna bilər".

***

Kremlin Mətbuat xidmətinin yaydığı məlumata görə, prezidentlər noyabrın 2-də Moskvada görüşəcəklər.

Sərkisyan: "Yeganə vasitəçi ATƏT-in Minsk Qrupudur"

"Dağlıq Qarabağ münaqişəsinin həllində yeganə vasitəçi ATƏT-in Minsk Qrupudur. Başqa heç bir vasitəçi yoxdur". Lent.az-ın "ARKA" agentliyinə istinadən verdiyi məlumata görə, bu barədə Ermənistan prezidenti Serj Sərkisyan Ermənistan İctimai televiziyasına müsahibəsində deyib.

Sərkisyan başqa heç bir ölkəyə vasitəçilik missiyasını öz üzərinə götürməklə bağlı müraciət etmədiklərini vurğulayıb: "Proses Minsk Qrupu çərçivəsində "Madrid razılaşması" əsasında həyata keçirilir. Hazırda bəzilərinin yaratmağa çalışdıqları qeyri-müəyyənlik heç nəyə kömək etmir. Rusiya Minsk Qrupunun həmsədri olan dövlətlərdən biridir. Dmitri Medvedyevin dəvəti və onun bu məsələdə fəallığı da qanunauyğundur. Abdullah Gülün bəyanatlarına gəldikdə isə deməliyəm ki, mən digər dövlət xadimlərinin bəyanatını şərh etmirəm. Xüsusilə də, bizim mətbuatda bəyanatın kontekstdən çıxarılan hissələri dərc edildikdə. Bəli, mən Türkiyənin Dağlıq Qarabağ münaqişəsinin həllində kömək edə biləcəyinə əminəm və artıq bu köməyin göstərildiyini deyirəm: Abdullah Gülün İrəvana səfəri və Türkiyə-Ermənistan danışıqlarının davam etməsi çətin problemlərin həlli üçün yaxşı nümunədir".

"Kosovanın Qarabağa dəxli yoxdur"

Bu günlərdə Serbiyanın Pravoslav kilsəsinin başçısı Amfilohiye demişdir ki, Kosovada yeni müharibə qaçılmazdır, «bu, gün kimi aydındır». «Azadlıq» radiosunun Cənubi Slavyan redaksiyasının Kosovanın paytaxtı Priştinadakı bürosunun rəhbəri Arbana Vidişiqiyə birinci sualımız elə belə də oldu - doğrudanmı müharibə başlaya bilər? «Mən düşünmürəm ki, ciddi müharibə təhlükəsi var. Təkcə Kosovada yox, bütün Balkanlarda. Çünki hazırda regionda bir proses gedir - Avropa Birliyi və NATO-ya inteqrasiya. Qaldı ki, Serbiya Pravoslav kilsəsinin rəhbərinin dediyinə, məncə, bu, daha çox onun narahatlığıdır, Serbiyanın siyasi hakimiyyəti bu fikirdə deyil».

Bəs, Kosovanın şimalında yaşayan serblər öz müstəqilliyini elan edə bilərmi? Arbana Vidişiqi deyir ki, Kosovanın parçalanması serb siyasətçilərinin gündəliyindədir. Ancaq bu, Serbiyanın özü üçün risklidir: «Çünki Serbiyanın cənubunda alban azlığı yaşayır, Kosovanın şimalı müstəqilliyini elan etsə, onda Serbiyadakı albanlar da öz müstəqilliyini elan edə bilər. Təsadüfi deyil ki, Serbiya prezidenti Tadiç Kosovanın şimalının müstəqilliyi ideyasını irəli sürəndə beynəlxalq aləmdə heç kim bunu müdafiə etmədi».

Kosova müstəqil olanda Ermənistan bunu Qarabağ mübahisəsində öz xeyrinə arqument kimi yozdu ki, öz müqəddəratını həll edən Kosova digər etnik münaqişələrə presedent yaratdı. Bəs, Kosovanın müstəqilliyinin Dağlıq Qarabağ, Cənubi Osetiya və ya Abxaziya münaqişəsinə təsiri varmı? Arbana Vidişiqi deyir ki, paralelləri Moskva və Belqrad siyasətçiləri nə qədər aparmağa çalışsalar da, Kosovanın digər münaqişələrə təsiri yoxdur. Çünki Kosova münaqişəsi də o biri konfliktlər kimi çox özünəməxsusdur: «Burda Miloşeviçin törətdiyi soyqırımı olub, bundan sonra NATO, BMT və Avropa Birliyi müdaxilə edib. Məncə, təsiri yoxdur».

Qarabağ münaqişəsinin həllinə paralel aparsaq, indi Kosovada albanlarla serblər yanaşı yaşaya bilirlərmi?

Arbana Vidişiqi: «Sıravi adamlar müharibədən sonra rahatlıq tapıblar, mən idilliyaya qapılmıram, ancaq münasibətlər yaxşılaşır. Nəzərə alın ki, müharibəni Serbiya hakimiyyəti salmışdı. İndi sıravi adamlar arasında ticarət və digər məsələlər qaydasına düşür. Bir misal çəkim - Kosovanın yeni hökumətində iki serb nazir var».

Elxan Nəsibli

UNUTMADIQ Kİ, UNUDULAQ

Ruslar tərəfindən işğal edilərək ermənilərə verilən və indi Ermənistan adlandırılan qədim yurd yerlərimizdən zorla qovulmağımızdan 20 il keçir.

Hər şey dünyanın gözü qarşısında baş verdi. 1905-1906, 1918-1920, 1948-1953-də olduğu kimi. 1988-ci ilin soyuq noyabr ayı idi. Artıq qoca payızın sonuncu nəfəsini qış öz ciyərlərinə çəkmişdi. Nəsilləri yola salmış, zəlzələlərə, tufanlara sinə gərmiş köhnə kənd evlərinin qəlyanı ağır-ağır tüstülənirdi. Qədim yurd yeri səsini içinə salıb bu səssizliyin sonunu gözləyirdi. Bir yarpaq pıçıltısı, bir quş uçuşu, bir insan səsi bu sükutu çiliklәyə bilərdi. Belə də oldu. Kəndimizə hay düşdü ki, ermənilər Kalinoda (keçmiş adı Əbilkənd olub – hal hazırda Taşir rayonudur) azərbaycanlıları qətlə yetirib, evləri talan ediblər...

Bu torpaqların qədim sahibləri olan azərbaycanlılar artıq bilirdilər ki, bu soyuq noyabr ayında tarix onlar üçün yenidən təkrarlanır. Ölümlü-itimli və bir daha dönüşü olmayan bir yol başlayırdı – əbədi köç yolu.

Sıralanan maşın karvanları bir elin, bir ulusun, bir yurdun böyüklüyünü, hənirini, istisini çox uzaqlara aparıb gedirdi.

Elə bil ağacları güllələmişdilər, elə bil torpağın üzü də top mərmisi kimi soyumuşdu. Yiyəsinin köç etdiyi maşının arxasınca düşüb qaçan, yorularaq dizlərini qucaqlayıb zingildəyən və öz kimsəsiz kölgələrinə hürən itlərin həsrətini belə yazıya almağa ürək lazımdı qardaşım, ürək. Adında türkün böyüklüyünü, əyilməzliyini saxlayan qədim bir yurd yeri – İlməzli kəndi də öz doğmalarını isti qucağından, südlü döşündən ayırırdı beləcə.

Dəydikcə dağlara düşmən nəfəsi,
O buz bulaqların göynəyər səsi.
Kimsəsiz ruhların "gəl-gəl"
deməsi,
Bağrının başını sökər İlməzli.

Uşaq olsam da, iri məməli, şiş buynuzlu qara inəyimizin pəyədə qalan çatısı, hər səhər eydirmə içdiyim dolçanın göynərtisi yaman yandırırdı məni. "Biz hara gedirik, ay nənə!"



Hafiz Təmirov
Azərbaycan Respublikası DİN-in Polis Akademiyasının Redaksiya-nəşriyyat bölməsinin baş inspektor- korrektoru, polis leytenantı

Rəhmətlik nənəmin dizlərini qucaqlayanda, bu torpaqürəkli arvadın gözlərinin bəndini elə bil dağ çayı qırdı. "Ölöm qavağında, gavırrar qoyluyur bizi. Biz daha İlməzliyə gəlmiyəjik".

Oğuz yurdu boşalırdı beləcə. Bayquş nəfəslərdən ürpənən doğmaların ruhları Hacı Xəlil babanın türbəsi üzərində qapqara bir buluda dönmüşdü. Hacı Xəlil ocağı qədim bir qəbristanlıq yeri idi. Deyilənə görə, orada Hacı Xəlil adlı övliya dəfn olunub. Bütün Dağ Borçalı mahalı və qıraq kəndlərdə yaşayanlar öz ölülərini orada dəfn edərdilər. Hacı Xəlil ba-

banın qoynunda torpağa vətən deyib sarılan Xoca babamın, Bahəddin əmimin sümüklərinin göynərtisini eşidirdim. İlahi, yurd yerindən heç nə aparmırıq, heç olmasa onları aparaq, heç olmasa onların torpağa qovuşmuş sümüklərini düşmən tapdağında qoymayaq. Bax, bu fikirlərlə neçə min adam köç eyləyirdi yurd yerindən.

Bu karvan hayandan baş alıb gəlir,
Yükünü yollara boşaldıb gəlir.
Sonu bilinməyən yolu var hələ,
Yolunda tufan var, dolu var hələ.

"Bəlkə də nə vaxtsa gələrik" – deyə, evlərimizə qıfıl vurmağa belə əlimiz gəlməmişdi. Yer də, göy də, ağaclar da öz dillərində bir vida nəğməsi oxuyurdu. "İnsanlar, siz gedirsiniz, yurdda biz qalırıq" sözünün acısını özümüzə dərd eləmiyək deyə, sərçələr də qaçıb gizlənmişdilər. Artıq İlməzli, Hacı Xəlil baba uzaqlarda qalmışdı. Köç Gürcüstanın Yırğançaq (Yarğançay) kəndinə yol almışdı. Bir zamanlar Dağ Borçalının ən böyük kəndlərindən biri olan Yırğançaq İlməzlidən, Soyuqbulaqdan, Cücəkənddən zor gücünə köç eyləyən ağır Oğuz ellərinə öz qoynunu geniş açıb, onlara yer verdi.

Göz yaşlarım vətən deyib tökülər,
Sıralanıb kirpiyimdən aşağı.
Ürəyimə əl vurmayın amandı,
Qəm üstündə köklənibdi aşığı.

Göyərdikcə göyüm-göyüm göynəyər,
Yaşılyarpaq həsrətim var içimdə.
Ağlatmayın, ağlatmayın, siz Allah,
Bir vətənsiz kür yetim var içimdə.

"El-elə sığar, ev-evə sığmaz" deyiblər. Bu köç hələ çox yollara yoldaş olacaq, çox elləri dolaşacaqdı. Hələ ki, İlməzlinin ətrini küləklər gətirirdi həsrət könüllərə.

Yırğançağa əlvida deyib, köç yola çıxdı. Beləcə, böyük bir mahalın qaçqınlıq həyatı başladı və Qazaxdan, Qəbələdən, Şamaxıdan keçən köç Bakıda yükünü yerə qoydu...

Əziz oxucum! Mən hələ başımıza gələn müsibətlərin çoxunu yazıb səni kövrəltmək istəmirəm. Mənim nə çəkdiyimi Allahdan, özümdən və qələmdən başqa kimsə bilmir. Hər şeyim orda - o yurd yerində qalıb. Dünyanın ən dilbər guşəsi belə mənimçün İlməzlinin bir daşının yanında xarabazardı. Şükürlər olsun ki, dilimi, dinimi, ən ümdəsi böyük türk adımı qoruyub saxladım. Bu gün "bəzilərimizdən" fərqli olaraq hay məni öz adımla – "türk" deyə çağırırdı. Çünki o mənim böyüklüyümü və kimliyimi daha yaxşı bilirdi. Aradan 19-20 il keçməsinə baxmayaraq hər an, hər saat o yurd yerlərinə dönmək arzusu ilə yaşayıram. Yuxularımda Hacı Xəlil babanın qoynunda uyuyan doğmalarımın qəbirlərini ziyarət edir, bağımızdakı yaylıq almalarından dərir, soyuq bulaqlarımızdan içirəm. Səhər yuxudan oyananda əlimin üşüdüyünü, dişimin göynədiyini hiss edirəm. İnanıram ki, bir gün gələcək, biz yenə Qurdbaşlı bayraqlar altda qədim yurd yerlərimizə qayıdacağıq. Bax bu inam, bu ümid məni və milyonlarla soydaşımı sabaha inandırır, yaşamağa ruhlandırır.

Və biz unutmadıq ki, unudulaq.

SƏNƏTİ ƏBƏDİ YAŞAYACAQ

Xalqımızın dahi müğənni oğlu, dünya şöhrətli sənətkar Müslüm Maqomayevin qəlbi döyünməkdən qaldı. Azərbaycan musiqi mədəniyyətinin rəmzi, ecazkar səsi bir neçə nəslin qəlbində bu gün də yaşayan, gələcək nəsillərin də hələ uzun müddət unutmayacağı bir musiqiçi aramızdan getdi... Onu Şalyapin və Sinatra ilə müqayisə edirdilər. O, Milandakı "La Skala" teatrında təcrübə keçmişdi, Parisdəki "Olimpiya"da oxumuşdu. 1997-ci ildə Günəş sisteminin kiçik planetlərindən birinə onun adı verilmişdi.

Müslüm Maqomayev səhnəyə qədəm basdığı gündən etibarən fenomenal bir şəxsiyyətə çevrilmişdi. Məşhur sənətşünas Svyatoslav Belza onun haqqında yazmışdı: "O, bizim həyatımıza parlaq kometa kimi daxil oldu". Rusiyanın xalq artisti Lev Leşşenko isə Müslüm Maqomayev haqqında ürək sözlərini belə ifadə etmişdi: «Biz ağ-qara məkanda yaşayanda, Müslüm bu məkanı rəngarəng etməyi bacarmışdı. Gənc, gözəl, istedadlı, hər zaman şən olan bu insan bizim üçün yeni dünya açırdı."

Müslüm Maqomayev ən populyar estrada ifaçılarından biri idi. Mübaliğəsiz deyə bilərik ki, o, həqiqətən milyonların sevimlisi idi. Pərəstişkarları onu sevir, o da onlara eyni məhəbbətlə cavab verirdi. Onun ifasında hər bir opera ariyası, hər bir mahnı həmişə möcüzə təsiri bağışlayırdı.

Bənzərsiz gözəl bariton səsə, qeyri-adi geniş imkanlar diapazonuna malik olan Müslüm Maqomayev opera və müzikllərdən ariyaların, neapolitan mahnılarının, Azərbaycan və rus bəstəkarlarının əsərlərinin gözəl ifaçısı kimi bütün planetdə misilsiz şöhrət qazanmışdı.

Sənət zirvəsinə ucalan yol onun doğma vətəni Azərbaycandan başlamışdı. Müslüm Maqomayev Bakıda konservatoriyanın nəzdindəki musiqi məktəbində fortepiano və bəstəkarlıq sinfində oxumuş, sonra Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdi. 1962-ci ildə Kremlin Qurultaylar sarayında Azərbaycan incəsənəti festivalının yekun konsertində çıxışı ona ümumittifaq şöhrəti gətirdi. 1963-cü ildən Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti olsa da, estrada səhnəsində çıxışlarını davam etdirirdi. 1969-cu ildə artıq kifayət qədər məşhurlaşmış müğənni Sopot festivalında birinci mükafata, Kann festivalında isə "Qızıl val" mükafatına layiq görülmüşdü.

1973-cü ildə əfsanəvi həmvətənimiz SSRİ xalq artisti adına layiq görüləndə onun cəmi 31 yaşı vardı. Bu, görünməmiş hadisə idi. Sonradan özünün yaratdığı Azərbaycan Dövlət Estrada-Simfonik Orkestrinin bədii rəhbəri olmuşdur. M.Maqomayevin repertuarında 600-dən çox əsər vardı. O, bir sıra bədii və sənədli filmlərdə çəkilmişdir. 30-a yaxın mahnının müəllifidir.

O, doğma vətəni ilə sıx əlaqə



saxlayırdı. Burada onu təkcə böyük musiqiçi və patriot kimi deyil, həm də öz istedadı ilə Azərbaycanı məşhurlaşdıran bir insan kimi sevirdilər.

Böyük müğənninin 65 illik yubileyi münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevin təbrik məktubunda deyilirdi: "Biz hamımız haqlı olaraq Sizinlə fəxr edirik. Siz artıq bizim canlı tariximizsiniz. İstedadınızın misilsiz yüksəlişinin şahidləri, eləcə də yeni nəslə mənsub azərbaycanlılar Sizi həmişə həqiqi sənətin böyük ustadı kimi dəyərləndirəcəklər". Müslüm Maqomayev Azərbaycan dövlətinin ali mükafatları – "Şöhrət" və "İstiqlal" ordenləri ilə təltif olunmuşdu.

Görkəmli musiqi xadimi, təkrarsız müğənni Müslüm Maqomayevin ecazkar sənəti əbədi yaşayacaqdır.

"Xəzər Xəbər"

TƏHSİL

MÜƏLLİM ÖMRÜ

Kosalı məktəbi Qardabani rayonunun sayılıb-seçilən məktəblərindəndir və həmişə qabaqcıl, bilikli pedaqoji kollektivi ilə məktəblər arasında fərqlənmişdir. Bu məktəbdə 27 ildən artıq çalışan və öz yetirmələri ilə fəxr edən müəllimlərdən biri də məktəbin tarix müəllimi Əvəzxan Sabir oğlu İsayevdir.



Əvəzxan müəllim 1958-ci il aprelin 14-də Qardabani rayonunun Kosalı kəndində qulluqçu ailəsində anadan olmuşdur. Atası İsayev Sabir Osman oğlu qabaqcıl kənd təsərrüfatı işçisi olmuş və nailiyyətlərinə görə1968-ci ildə Sovet dövlətinin ən yüksək ordeni olan Lenin ordeni ilə təltif olunmuşdur. Anası İsayeva Ayna Seyid qızı evdar qadın olsa da, elin-obanın sayılıb-seçilən ağbirçəklərindən olmuş və bütün ömrünü yeganə oğlunun təlim-tərbiyəsinə həsr etmişdir.

Əvəzxan İsayev 1965-1975-ci illərdə Kosalı orta məktəbində təhsil almış və məktəbi əla qiymətlərlə qurtararaq, sənədlərini ADU-nun tarix fakültəsinə vermişdir. 1976-1981-ci illərdə bu fakültədə ali təhsil alaraq, doğma məktəbdə ona vaxtilə dərs deyən qocaman müəllimləri ilə bərabər çiyin-çiyinə çalışmağa başlamışdır.

İllər tez ötüb keçir. Artıq 27 ildir ki, Əvəzxan müəllim Kosalı məktəbində tarix fənnini öz sevimli şagirdlərinə həvəslə öyrədir. Yaşının 50 olmasına baxmayaraq, o yenə də gənclik həvəsi ilə dərs deyir, zəng vurulan kimi hamıdan tez sinif jurnalını götürüb dərsə tələsir. Çox zaman 45 dəqiqə onun dərs deməsinə azlıq edir və o tənəffüslərdə də öz sevimli şagirdlərinə tarixi vərəq-vərəq izah edir, başa salır.

Məhz bu fədakarlığının nəticəsidir ki, Əvəzxan müəllimin yetirmələri dəfələrlə respublika fənn olimpiadalarının qalibləri olmuş və I, II, III dərəcəli diplomlarla mükafatlandırılmışlar. Gürcüstan Respublikası Elm və Təhsil Nazirliyinin göstərişi ilə 2007-ci ilin aprelində keçirilən məktəblərarası zona yarışlarında tarix fənni üzrə Kosalı məktəbinin şagirdləri Qardabanı 3 saylı məktəbi, Nəzərli və Vaxtanqisi məktəblərini arxada qoyaraq, birinci yerə çıxmışdılar ki, bu qələbənin əldə edilmə-

sində Əvəzxan müəllimin rolu və əməyi danılmazdır. Əvəzxan müəllim dərsdə ciddi və tələbkar müəllimdir. Şagirdlərin müasir dünya ilə ayaqlaşmaları üşün əlindən gələni əsirgəmir. Qəzet materialları, radio-televiziya verilişlərindən qiymətli fikir və mülahizələri şagirdlərə çatdıraraq, onların dünyagörüşlərinin yüksəlməsinə çalışır.

Öz uşaqlarına da münasibətdə ciddi olan Əvəzxan müəllim onların hərtərəfli böyüməsində çox zəhmət çəkmişdir. Məhz bu zəhmətin nəticəsində iki qızı – Əzizə və Aygül və bir oğlu – Aybəy ali təhsil almışlar.

Əvəzxan müəllim daim mütaliə edən, daim axtarışda olan ziyalılardandır, onun evdə zəngin kitabxanası var, xaricdə təhsil alan və yaşayan şagirdlərindən isə daim bir xahişi olur ki, kəndə gələrkən onun üçün təzə qəzetlər gətirsinlər.

50 illik ömrünün 27 ildən çoxunu el balalarının təlim-tərbiyəsi yolunda məşəl kimi yandıran Əvəzxan müəllim daim yorulmadan gənclik eşqi ilə şagirdlərinə tarix fənnini dərindən öyrədir, onlarin elmli, dünyagörüşlü olmaları yolunda əlindən gələni əsirgəmir.

Bu xeyirxah fəaliyyətində Əvəzxan müəllimə yeni-yeni uğurlar arzulayır və ürəkdən deyirik: "50 yaşın mübarək, Əvəzxan müəllim! Yüz yaşını görək!"

Qiyas Kazımov,
məktəbin rus dili və ədəbiyyatı müəllimi

"HƏR BİR UŞAQ POTENSİAL DAHİDİR"

"ALOHA" Azərbaycan" beynəlxalq təlim proqramının çox maraqlı və səmərəli olacağı gözlənilir. AzərTAc-ın müxbiri bu proqramın təşkilatçısı, Hindistan vətəndaşı Məsud Vəfai ilə bu barədə söhbət etmişdir.

M.Vəfainin sözlərinə görə, hər bir uşaq potensial dahidir və ALOHA proqramı bunu sübut edir. Sadəcə olaraq bu "dühanı" üzə çıxarmaq və təkmilləşdirmək lazımdır. Abakus hesablamasının köməyi ilə ali riyaziyyatın öyrənilməsi proqramı (ALOHA) məhz bu məqsədə yönəlmişdir. Proqram uşaqlarda mürəkkəb riyazi məsələləri həll etmək bacarığı ilə yanaşı yaddaş, analitik düşüncə qabiliyyəti, müşahidəçilik, diqqətin cəmləşdirilməsi və məntiqi təfəkkür kimi keyfiyyətləri də inkişaf etdirir. Əslində, dahilik elə bu elementlərin məcmusudur.

Proqramın təklif etdiyi metodologiya uşaqlara ən mürəkkəb riyazi hesablamaları şifahi həll etməyi öyrətmək məqsədilə tərtib olunmuşdur. Bu metodologiya üzrə tam təlim kursu keçən uşaqlar təhsildə çox yaxşı nəticələr göstərəcəkdir. Valideynlərin çoxu bu proqramın uğurlu olacağına inanır. Elə buna görə də, dünyada 3000-dən çox mərkəzdə 3 milyona yaxın uşaq bu proqram üzrə təhsil alır.

MDB məkanında ALOHA metodologiyası üzrə beynəlxalq təlim proqramı ilk dəfə Azərbaycanda tətbiq edilməyə başlanmışdır. Lakin hələlik az olan təcrübədə bu metodologiyanın səmərəli olmasını təsdiq edir.

1700-dən çox Azərbaycan tələbəsi ABŞ-da təhsil alıb

"Son 15 il ərzində ABŞ-ın qəbul etdiyi bir çox təhsil proqramları üzrə Azərbaycan tələbələri və məktəbliləri ABŞ-da təhsillərini davam etdirə bilirlər". APA-nın xəbərinə görə, bu barədə ABŞ-ın Azərbaycandakı səfiri Enn Dersi Bakıda keçirilən Amerika təhsil yarmarkasında bildirib. Səfir deyib ki, bu proqramlar sırasında FLEX, Muskie, U-Grad, Fulbright və başqaları var. Enn Dersi qeyd edib ki, proqramlar üzrə 1700-dən çox Azərbaycan tələbəsi ABŞ-da təhsil alıb: "Gələcəkdə bu rəqəm artacaq. Təhsil sərmayədir. Bu sahəyə yatırılan sərmayələr xalqın gələcəyini təmin edir".

ОТКРЫТЫЙ ДОСТУП К НАУЧНЫМ ПУБЛИКАЦИЯМ: ЭЛЕКТРОННЫЙ АРХИВ УНИВЕРСИТЕТА ХАЗАР



Татьяна Зайцева

Директор Библиотечно-информационного центра Университета Хазар

В настоящее время стремительными темпами набирает силу международное движение Открытого Доступа (ОД) к научным знаниям, в котором ведущую роль играют университетские библиотеки. Именно библиотекам при формировании институциональных репозиториев рекомендовано обеспечивать подготовку качественных метаданных, сохранность и стабильность материалов. Библиотеки должны пропагандировать среди ученых выгоды Открытого Доступа, которые состоят, прежде всего, в быстром распространении научных результатов и увеличении цитируемости статей.

Проблема Открытого Доступа особенно важна для библиотек Азербайджана, которые весьма стеснены в средствах на подписку зарубежных научных изданий. Своевременное отслеживание новых открытых зарубежных источников поможет нашим ученым получать доступ к мировым достижениям, а библиотекам - экономить средства, разумно заменяя подписку на рекламируемые зарубежными издательствами дорогостоящие информационные базы.

Открытый Доступ: движущая сила

Под Открытым Доступом к литературе понимается бесплатный доступ через публичный Интернет, позволяющий читателям читать, загружать, копировать, распространять и печатать, искать и делать ссылки, индексировать, передавать как данные, или использовать с другой легальной целью, минуя финансовые и технические барьеры, лишь сохраняя целостность работы и ссылаясь на автора[1].

В настоящее время исследователи различают следующие подходы к понятию »Открытый Доступ»:

- *Журнальные статьи, публикуемые за счет автора;*
- *Проекты традиционных библиотек;*
- *Масштабные проекты Google и Microsoft;*
- *Модель «Открытого Доступа» на базе самоархивирования;*
- *Институциональные и тематические репозитории.*

Технология публикации журналов Открытого Доступа (Open Access) была разработана и поддержана в рамках проекта - SPARC (*The Scholarly Publishing and Academic Resources Coalition*) - Коалиции научной публикации и академических ресурсов - с целью вовлечения ученых в процесс самоархивирования и самопубликации.

Главная цель SPARC - помогать новым независимым научным издательствам, научным обществам и университетам в движении по распространению открытого доступа http://www.arl.org/.

Несмотря на скептическое отношение к ОД со стороны многих коммерческих издательств, практически всеми признается его несомненное влияние на всю систему распространения научных знаний. Благодаря движению ученые и издатели ощутили себя в меняющемся мире. Появляются новые журналы, предоставляющие доступ если и не бесплатный, то хотя бы относительно не дорогой. Под влиянием движения стала повышаться конкурентноспособность многих изданий.

Так, ведущий журнал открытого доступа по физике – New Journal of Physics в среднем обеспечивает публикацию в течение 40 дней с момента подачи статьи на рассмотрение (хотя отклоняется до 70% рукописей)

[1] Будапештская инициатива «Открытый Доступ», 2003 http://www.soros.org/openaccess/ru/index.shtml

и за 4 года существования вышел на высокий уровень популярности.

О влиянии открытого доступа на цитируемость журнальных статей свидетельствуют такие факты, как 72% статей *Astrophysical Journal* находящихся в открытом доступе (в основном через ArXiv) цитируются в два раза чаще, чем 28% статей в закрытом доступе[2]. Тим Броди из Саутгемптона доказал более частое цитирование статей, находящихся в открытом доступе. Статьи PNAS (Proceedings of the National Academy of Sciences) в открытом доступе «загружают» в 50% раз больше, чем подписные и цитируют в два раза чаще.

Примером успешной модели сотрудничества для издательств в открытом доступе является Bioline International - некоммерческая международная инициатива электронного издательства для развивающихся стран (http://www.bioline.org.br). Bioline International действует с 1993-го года, а с 2004-го года существует в открытом доступе.

Bioline International предоставляет для журналов-участников бесплатные услуги по электронному издательству, распространению и архивированию, техническую поддержку для индивидуальных пользователей и библиотек, популяризацию журналов среди библиотечных консорциумов и исследовательских организаций, знакомство авторов и издателей. Открытый доступ помогает сделать журнал видимым во всем мире, увеличить видимость исследований и количество цитирований, повысить конкурентноспособность журнала на издательском рынке.

На 1 июня 2008 года директория журналов открытого доступа (Directory of Open Access Journals, DOAJ), поддерживаемая университетом г. Лунд, Швеция, насчитывала 3401 наименований научных журналов, среди которых американских - 731, бразильских-321, индийских- 97, турецких- 92, пакистанских – 38, иранских- 33, российских- 14.

Что касается продвижению открытого доступа в традиционные библиотеки, то в октябре 2005 года стартовал проект «Открытая библиотека» (Open Library), который субсидируется Yahoo и Microsoft. Масштаб данного проекта сравним с замыслами Google (предполагается оцифровать 1 млн. книг), с существенным отличием, при котором сканироваться будут лишь те книги, на которые получено разрешение от правообладателя.

Проект оцифровки книжных фондов «Google Library» включает как тексты документов, вышедших из-под защиты копирайт, но также и документов, защищенных копирайт, оцифровываются в нескольких крупных библиотеках или посредством заключения соглашений с издательствами.

В ноябре 2006 г. подписано Соглашение между Библиотекой Конгресса США и Российской национальной библиотекой, которое ознаменовало собой начало нового международного проекта по разработке и созданию Мировой цифровой библиотеки[3].

Два направления Открытого Доступа

Для претворения в жизнь идеи ОД рекомендуются две стратегии: самоархивирование и создание журналов свободного доступа. Эти новые журналы не должны использовать копирайт для ограничения доступа к материалам, которые они публикуют и не должны брать плату за чтение и подписку. «Наша миссия в распространении знания будет выполненной лишь наполовину, если информация не будет широко и легко доступна обществу[4]».

Проектом «Открытые Архивы» (Open Archives Initiative) предусмотрена разработка и продвижение стандартов совместимости (interoperability), что обеспечит эффективное распространение электронного сетевого контента.

Истоки проекта лежат в стремлении улучшить доступ к архивам электронных препринтов (материалов предполагаемых к публикации научных статей, не прошедших на данный момент стадии научного реферирования). В настоящее время помимо препринтов, работа ведется и с другими электронными документами, в первую очередь научными и образовательными ресурсами. Базовые технологические решения и стандарты независимы от типа контента и от экономических условий его поставки.

[2]Данные «Greg Schwarz»

[3]Оцифровка культурного и научного наследия и обеспечение доступа к нему: Ежегодный отчет Российской Федерации, 2006

[4]Берлинская Декларация, октябрь 2003 г

Открытые архивы-это разумная система организации и публикации результатов исследований для сотрудников, студентов, исследователей и широкой общественности, гарантирующая доступ, видимость, использование и скорость. Главную роль в их развитии играют люди и цели. Системой являются не только аппаратное и программное обеспечение и сети, но и человеческие ресурсы и правила: политики размещения информации, процедуры, документооборот.

Архивы помогают исследователям в реализации операционных и тактических задач: коммуникации, публикации, преподавательской деятельности, административных обязанностях (отчеты, архивирование); предоставляют среду для дистанционного обучения студентов, популяризируют качественные исследования и учебные курсы в университетах, предоставляют широкой общественности информацию об исследованиях и образовании.

Архивы открытого доступа решают также стратегические задачи: улучшают доступ к исследовательской информации, способствуют открытости в научном сообществе и процессах публикации, улучшают механизмы общественной подотчетности университетов и научных организаций за использованные общественные средства.

Институциональные репозитории

Важное значение в развитии идеи ОД имеют электронные архивы университетов.

Институциональный репозиторий - это место для сбора, хранения и распространения интеллектуальной продукции организации (преимущественно - научной), представленной в цифровой форме.
http://en.wikipedia.org/wiki/Institutional_Repository

Распространение институциональных депозитариев в мире характеризуется следующими данными[5]:

Таблица

Процент университетов данной страны, имеющих институциональные репозитории

Австралия –95%
Бельгия – 53%
Дания–50%
Финляндия – 5%
Франция – 27%
Германия – 100%
Италия – 22%
Норвегия – 100%
Швеция – 64%
Нидерланды –100%
Великобритания – 22%
США – 50% (докторские диссертации)

Соответственно, чем больше статей находится в архиве организации, тем выше ее научный статус. Если для создания таких архивов используется программное обеспечение, совместимое с протоколом сбора метаданных Инициативы открытых архивов (OAI PMH), то они являются совместимыми с другими подобными архивами, что позволяет объединять для поиска информацию из различных архивов, извлекать и объединять метаданные по различным критериям и т.п.

Одной из основополагающих инициатив в продвижении технологии самоархивации является DSpace - плод совместных усилий библиотеки MIT (The Massachusetts Institute of Technology) и компании Hewlett-Packard.

Бесплатное программное обеспечение для репозиториев цифровых документов DSpace позволяет работать с различными входными форматами документов и обеспечивает ввод, хранение, индексацию, а также сохранность и распределение научных материалов в электронном формате.

В Dspace на октябрь 2008 г. зарегистрировано более 250 участников, в т. ч.: Cornell University, Georgia State University, Indiana University, Kansas State University, Massachusetts Institute of Technology; State University of New York, University of Wisconsin (USA); University of Nottingham, University of Oxford, University of Manchester, University of Cambridge, University of Aberdeen, University of Glasgow (United Kingdom); Istanbul Technical University (Turkey); Institute of Scientific and Technical Information (France), Kyoto Institute of Technology, Nagasaki University, Tokyo University Foreign Studies (Japan), среди российских – Уральский и Красноярский государственные университеты.

DSpace работает с любыми видами электронных документов - текст, изображения, видео, аудио файлы и любого содержания, в том числе:

- *Статьи и препринты (Articles and preprints);*
- *Технические отчеты (Technical reports);*
- *Рабочие документы (Working papers);*
- *Труды конференции (Con-*

[5] Westrienen G, Lynch, C. Academic Institutional Repositories, *D-Lib Magazine, September. 2005*

ference papers);

• *Диссертации в электронном формате (E-theses);*

• *Материалы для образования (Learning objects);*

• *Переформатированные (оцифрованные) библиотечные коллекции (Reformatted digital library collections).*

Электронный архив Университета Хазар @ DSpace

В Азербайджане первые шаги в направлении создания институционального репозитория были сделаны в Университете Хазар. Благодаря участию сотрудников Библиотечно-информационного центра (БИЦ) на семинаре, организованном EIFL.net в Киеве в июне 2008.г., появилась реальная возможность для ознакомления и заимствования передового опыта, активно работающих репозиторий в Украине, Киргизии и Белоруссии, что послужило толчком для активизации работ в этом направлении.

В сентябре 2008 г. было инсталлировано программное обеспечение DSpace. Администрирование и управление университетским репозиторием успешно осуществляет Библиотечно-информационный центр Университета Хазар.

На начальном этапе развития институционального репозитория в качестве контента используются публикации из журналов, издаваемых Университетом «Хазар»:«Azerbaijani Studies», Khazar Journal of Mathematics, Journal of Archeology, Khazar View.

Всего за месяц коллекция статей, заархивированных из периодических изданий Университета Хазар, выросла до 300 полнотекстовых документов, к которым имеется свободный доступ по сети Интернет. Разработанная технология ввода документов в университетский электронный архив предусматривает как использование электронных версий документов, так и их сканирование при отсутствии последних.

Как показали результаты, среднестатистические данные ввода публикации в электронный архив, при наличии электронных версий, составили 10-15 документов в день.

Параллельно будут также развиваться такие актуальные коллекции, как учебно-методические материалы, включающие публикации преподавателей и сотрудников университета, а также авторефераты и диссертации, преимущественно защищенные в Университете Хазар.

Репозиторий Университета Хазар позволяет решать следующие функциональные задачи:

• *Обеспечение доступа к электронным ресурсам;*

• *управление структурой архива;*

• *возможность онлайнового самоархивирования;*

• *метаописание ресурсов на основе простых схем метаданных (профилей схемы Дублинского ядра);*

• *регистрация пользователей;*

• *авторизация и управление уровнями доступа к ресурсам;*

• *навигация и поиск по архиву;*

• *статистика использования;*

• *возможность полнотекстового поиска и т.д.*

В соответствии с разработанными правилами БИЦ гарантирует автору полноту и идентичность переданного текста его произведения или всех частей печатной версии авторского материала при вводе в электронный архив.

Открытие доступа к полному тексту остается привилегией автора, причем установление Open Access настоятельно рекомендуется, но не является обязательным. Программное обеспечение репозитория позволяет авторам сделать выбор между открытым доступом (Open Access - OA) или ограниченным доступом (Restricted Access -RA):

Стратегии самоархивирования Университета Хазар позволит обеспечить открытый доступ ко всем исследованиям университета и максимизировать эффект своих научных результатов и рейтинг по показателям научного вклада.

Репозиторий Университета Хазар получил международное признание, будучи зарегистрированным, в директории репозиториев открытого доступа (DOAR)

http://www.opendoar.org/countrylist.php?cContinent=Asia

Открытый доступ имеет для Университета Хазар и в целом для Азербайджана колоссальное значение. Он способен облегчить знакомство наших исследователей с мировыми достижениями, улучшить качество отечественных публикаций, потому что ученый ради собственной репутации неизбежно будет стремиться к повышению их ценности, обеспечить долговременную сохранность научной продукции университета и возможность комплектования нетрадиционными научными материалами без обычных ограничений по их объему.

Все это, несомненно, приведет к поднятию конкурентноспособности результатов отечественной науки, что всегда было и остается важнейшей задачей, в решение которой библиотеки могут и должны внести свою лепту.

MƏDƏNİYYƏT

QURANIN YENİ TƏRCÜMƏSİ RASİM BALAYEVİN QİRAƏTİNDƏ



İslamın müqəddəs kitabı Quran Hacı Əlixan Musayev tərəfindən Azərbaycan dilinə tərcümə olunmuş və diskə yazılmışdır.

Əməkdar incəsənət xadimi, kinorejissor Şeyx Əbdül Mahmudbəyov bildirmişdir ki, o, Hacı Əlixan Musayevlə ötən Həcc ziyrəti zamanı Səudiyyə Ərəbistanında tanış olmuşdur. Həmyerlimiz Mədinə şəhərində İlahiyyat Akademiyasını fərqlənmə diplomu ilə başa vurmuşdur. Ərəb dilinin və ilahiyyat elminin bilicilərindəndir. Söhbət edərkən bildirib ki, Quranı Azərbaycan dilinə tərcümə etmişdir. Eyni zamanda, Peyğəmbəri yaxşı tanıyanların xatirələrinə istinad etməklə ayələrin necə nazil olması, Məhəmməd Peyğəmbərin hədisləri ilə əlaqədar 240 səhifəlik izahat da vermişdir.

Bu söhbətdən sonra müqəddəs kitabın Hacı Əlixan Musayev tərəfindən Azərbaycan dilinə tərcüməsini nəşr etdirmək qərara alınmışdır. Bu iş həyata keçirilmiş, üstəlik də kitab xalq artisti Rasim Balayevin qiraətində diskə yazılmışdır.

Rasim Balayevin sözlərinə görə, o, Quranı çox asan və xüsusi əhval-ruhiyyə ilə səsləndirmişdir. Bu işdə tərcüməçinin də rolu böyükdür. Çünki o, asan anlaşılan sözlər və ifadələr seçmişdir.

"QURTULUŞ SAVAŞINDA AZƏRBAYCANLILAR" SƏNƏDLİ FİLMİ

Balkan müharibələrindən başlayaraq Türkiyənin 1919-1922-ci illərdə azadlıq uğrunda apardığı İstiqlal savaşının sonunadək Azərbaycandan qardaş ölkəyə göstərilən yardımlara həsr olunmuş "Qurtuluş savaşında azərbaycanlılar" üçhissəli sənədli filminin çəkilişləri başa çatmışdır.

İki ilə çəkilən sənədli film Türkiyə Radio-Televiziya Qurumunun "TRT-2" kanalında göstərilmişdir.

Filmin çəkilişi prosesində iki ölkənin arxivləri araşdırılmış, çəkilişlər həm Azərbaycan, həm də Türkiyə ərazilərində aparılmışdır. Rejissorları Əbdülhəmid Avşar və Figən Baranoğlu olan filmdə İstiqlal savaşında Azərbaycanın Türkiyəyə göstərdiyi maddi, hərbi və siyasi yardımlar sənədlər və faktlarla göstərilmiş, o dövrün tarixi hadisələri xronoloji ardıcıllıqla öz əksini tapmışdır.

Sənədli filmin birinci hissəsində Balkan müharibələri və Birinci Dünya müharibəsi ərəfəsində azərbaycanlıların Türkiyəyə münasibəti, o cümlədən sosial, mədəni və hərbi yardımlardan bəhs edilir.

FİKRƏT ƏMİROVUN YENİ TAPILMIŞ FOTOLARI

Oktyabrın 23-də Muzey Mərkəzində SSRİ xalq artisti, dövlət mükafatı laureatı, bəstəkar Fikrət Əmirovun geniş ictimaiyyətə məlum olmayan, yeni tapılmış fotoşəkillərindən ibarət sərgi keçirilmişdir.



Dövlət Film Fondu ilə Azərbaycan Dövlət Foto-Kino Sənədləri Arxivinin birgə təşkil etdikləri sərgidə F.Əmirovun Kanadada yaşayan soydaşımızın şəxsi arxivindən gətirilərək, bərpa olunmuş fotoları iştirakçılara təqdim edilmişdir.

Sərginin açılış mərasimində Dövlət Film Fondunun direktoru Cəmil Quliyev, kinoşünas Aydın Kazımzadə və başqaları Azərbaycanda musiqi mədəniyyətinin inkişafında, onun beynəlxalq aləmdə tanınmasında Fikrət Əmirovun xidmətlərindən danışmışlar.

Tədbirdə görkəmli bəstəkarın kinofilmlərə yazdığı musiqilərdən parçalar səsləndirilmişdir.

Axırda bəstəkar Cəmil Əmirov tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirmişdir.

İstanbulda azərbaycanlı rəssamın sərgisi



İstanbuldakı "Derinlikler" sənət mərkəzində azərbaycanlı rəssam Hümmət Qaracanın "Dörd mövsüm İstanbul" adlı sərgisi açılıb. APA-nın Türkiyə bürosunun xəbərinə görə, sərgidə H. Qaracanın son vaxtlar çəkdiyi 40 yağlı boya tablosu nümayiş etdirilir. Bu, H. Qaracanın "Derinlikler" sənət mərkəzində açılan üçüncü fərdi sərgisidir. Mərkəzin sahibi Mahmud Müftüoğlu yaxın vaxtlarda İtaliya, İngiltərə və ABŞ-da H. Qaracanın sərgilərini açacaqlarını bildirib. Sərginin açılışında nümayiş etdirilən tabloların yarıdan çoxu satılıb.

Qeyd edək ki, 1956-cı ildə Borçalı mahalında anadan olan H. Qaraca yaradıcılığını 1992-ci ildən bəri Türkiyədə davam etdirir. Onun indiyə qədər Türkiyədə 20 fərdi sərgisi açılıb, əsərləri bir çox qrup sərgisində nümayiş etdirilib. 2007-ci il iyunun 7-də keçirilən hərracda Hümmət Qaracanın Atatürk portreti rekord qiymətə - 400 min dollara satılıb. Bu, bir azərbaycanlı rəssamın indiyə qədər satılan ən bahalı əsəridir.



XIII UŞAQ MUĞAM FESTİVALI

Oktyabrın 22-də Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında Gənclər və İdman Nazirliyinin dəstəyi ilə "Kainat" Gənclik Mərkəzinin keçirdiyi ənənəvi XIII uşaq muğam festivalına yekun vurulmuşdur.

Tədbirdə muğam ustaları, Bakıdakı xarici səfirliklərin nümayəndələri, ictimaiyyət və mədəniyyət xadimləri iştirak etmişlər.

May ayında Ağdamın Quzanlı qəsəbəsində start götürmüş, Hacıqabul, İsmayıllı, Abşeron rayonlarında, Sumqayıt və Bakı şəhərlərində davam etmiş festival 16 yaşınadək gənc istedadlar arasında keçirilmişdir

XIII uşaq muğam festivalının seçim kampaniyasının artıq sona çatdığını bildirən "Kainat" Gənclik Mərkəzinin rəhbəri Rahib Rəsulzadə demişdir ki, son zamanlar ölkəmizdə qədim muğam irsimizin öyrədilməsi və təbliği ilə bağlı yüksək səviyyədə geniş işlər aparılmışdır. Muğam sənətinin qorunması, təbliği və inkişaf etdirilməsi sahəsində həyata keçirilən layihələr öz bəhrəsini verməkdədir. İndi Azərbaycanın hər yerində muğama maraq daha da artmışdır və Təşkilat Komitəsi seçim zamanı bunun bir daha şahidi olmuşdur.

Sonra festivalın 14 nəfər qalibinin yekun konserti olmuşdur. Onları Baba Salahov adına xalq çalğı alətləri ansamblı müşayiət etmişdir.

Festivalda iştirak edən gənc ifaçıların hər birinə diplom, 3 nəfərə isə həvəsləndirici mükafat təqdim edilmişdir.

Birinci yerə Orxan Əbilov layiq görülmüşdür.

Misir Ərəb Respublikasının Bakıdakı Mədəniyyət Mərkəzinin nümayəndəsi qaliblərə qiymətli hədiyyələr vermişdir.

ПОЭЗИЯ РУМИ - ОБЪЕДИНЯЮЩАЯ СИЛА ЦИВИЛИЗАЦИЙ

Интервью Анджума Наима - редактора "СПАН" на языке урду", издаваемого посольством США в Индии, с доктором Невитом Эргином



Доктор Невит Эргин, американский врач турецкого происхождения, работающий в Сан-Матео, штат Калифорния, и переводчик поэтических повествований Джелалэддин Мохамеда Балхи Руми, побывал в Индии в связи с 800-летием со дня рождения персидского поэта. Хотя Эргин по профессии хирург, на протяжении последних 50 лет он посвятил себя изучению Руми и его трудов. Он также перевел и издал полное собрание поэтических произведений Руми на английском языке в 22 томах под названием "Байяз-и-кабир" ("Полная антология"). Руми, живший в 13-м веке поэт, исламский правовед, философ и суфийский мистик, оказал большое влияние не только на персидскую, но и на арабскую, бенгальскую и турецкую литературу и литературу урду и является одним из самых популярных поэтов в США.

В чем заключается актуальность и значимость Руми в нашу эпоху?

Руми всегда был символом объединяющей силы в цивилизации и ее социально-экономической системе. Его поэзия несет утешение тем, у кого тяжело на сердце, и тем, чей ум взбудоражен. Не забывайте: чем ужаснее становится мир, чем больше человеческих жизней теряет цену, тем более актуальной и значимой будет поэзия Руми. Разве вы не замечаете, как потенциал человека и его замкнутое в себе религиозное поведение приобретают полностью отрицательный заряд? В этой ситуации сможет ли он выжить без духовного оазиса в пустыне негативных парадигм?

В любом случае человек явно нуждается в жизненном кодексе как альтернативе своей конкретной вере, чтобы избежать отчужденности в собственном обществе, в своей общине. И творчество Руми служит в этом отношении лучшим руководством. Руми, конечно, столь велик, что он не укладывается в обычные житейские рамки. Но в то же время он был очень близок к человечеству, вне всяких религиозных и расовых границ. Руми похож на бесконечно большой зонт, накрывающий все, что у нас есть, и сверх того.

Как Руми стал таким популярным поэтом в Соединенных Штатах?

Как хорошо сказал один человек: "Популярность Руми в Соединенных Штатах связана с огромным духовным голодом". Хорошо известно, что американцы довольно много читают. В Америке издается больше книг. Но обыкновенным людям редко предоставляется возможность изучать книги и размышлять о том, где политические или социальные условия ненормальны, где жизнь обременительна. Поскольку американцы задумываются о различных проблемах, пытаясь найти решения, именно Руми

привлек их внимание, и его мысли производят на них столь большое впечатление.

Руми открывает новые пути в многомерном обществе, перед которым стоит дилемма между верой и рассудком. Американское общество наполнено житейскими удобствами и благами, но богатый и преуспевающий человек не обязательно бывает счастлив. В этом смысле Руми дарит желанное счастье - счастье тела и души, счастье разума и сердца. Именно это делает его столь популярным.

Заслуга в популярности Руми в США всецело принадлежит профессору Коулману Барксу, который не только ввел Руми в литературные круги Соединенных Штатов, но и прекрасно перевел его антологию. Прежние английские версии как бы помещали жаворонка поэтического воображения в клетку одиночества. Баркс открыл эту клетку, и птица вновь начала петь мелодичные песни во всей их полноте и сущности.

Насколько трудно было переводить поэзию Руми?


Перевод литературного произведения - трудная и сложная задача. Еще труднее переводить такую метафизическую поэзию, как у Руми.

В стихах Руми кроется опасность. Они настолько ослепляют своей поэтической красотой, что можно не заметить их пророческого смысла.

Нельзя воспринять и понять Руми, если не заглянуть в его окно, где можно увидеть подлинную перспективу. Я врач по профессии, но, заинтересовавшись поэзией Руми, я в течение 15 лет полностью посвятил себя тому, чтобы понять его сюжеты и мысли. Если хочешь проникнуть в мир его мыслей, Руми требует, чтобы ты отказался от своих прежних предположений и идеологических воззрений. Скорее это предварительное условие входа в мир его мечты. Если читать его труды, сохраняя собственные пристрастия, понять Руми крайне сложно. Этому моменту я уделил очень много внимания.

Какую роль играет религиозное мировоззрение суфизма, присущее поэзии Руми, в многомерном обществе?

Суфизм освобождает от принудительных тисков веры, которая сама себя украшает. Он побуждает человека общаться с Богом напрямую. Различные религиозные убеждения, принимаемые на себя в



многомерном обществе, затрудняют обращение человека к Богу. Суфизм освобождает его от подобных оков. Именно поэтому он играет важную роль в таком обществе по сравнению с одномерными обществами. Индия всегда была страной людей, странствующих в поисках Бога. Поэтому суфизм здесь глубоко укоренился. Думаю, эти черты сходства будут играть чрезвычайно важную роль в сближении Индии и Америки.

(Распространено Бюро международных информационных программ Государственного департамента США. Веб-сайт: http://www.america.gov/ru)

MÜZAKİRƏ: *"TÜRKİYƏDƏ İSLAM İNQİLABI MÜMKÜNDÜRMÜ?"*

Türkiyədə islam inqilabı mümkün deyil!



Jurnalımızın 250-252-ci nömrəsində "Middle East Quarterly" jurnalının redaktoru Maykl Rubinin "National Review Online" dərgisində çap olunmuş "Türkiyədə islam inqilabı mümkündürmü?" adlı məqaləsinin icmalını vermiş və tarixçi alimləri, siyasətçiləri, politoloqları bu sual ətrafında müzakirəjə dəvət etmişdik.

Xatırladırıq ki, məqalədə türk ideoloqu Fətullah Gülənin başçılıq etdiyi hərəkatdan bəhs olunurdu.

Azərbaycanın görkəmli politoloqu Zərdüşt Əlizadənin müzakirə üçün yazdığı məqaləni oxuculara təqdim edirik.

Zərdüşt Əlizadə

Məqalə müəllifi Maykl Rubin məsələyə səthi yanaşır, zira belə yanaşma ümumiyyətlə oxucu üçün anlaşılandır və rəğbət qazandırır. Fəqət mətni təhlil edərkən ziddiyyət üzə çıxır. Əvvəla, Fətullah Gülən gələcək islam inqilabının bayraqdarı kimi qəbul edilərsə, deməli, ABŞ-da ona sığınacaq verən, onun mötəbər amerikan universitetləri tərəfindən yüksək təqdir edilməsini mümkün sayan və Birləşmiş Krallığın lordlar palatası tərəfindən təntənə ilə qarşılanmasına rəvac verən şəxslər və qurumlar dünyadan bixəbər və cahildirlər, çünki Qərbdə geniş yayılmış fikrə görə, islam inqilabı Qərbin və demokratiyanın əksidir.

İkinci, Gülən hərəkatının 1 milyon üzvünün aysberqin görünən tərəfi olduğu fikrini iddia edənləri ciddi sayan müəllif səkkiz milyon fətullahçının nə üçün demokratik seçkilərdə qələbə qazanmadığının və ya qazana bilməməsinin səbəbini göstərmir.

1973-cü ildə İzmir Dövlət Təhlükəsizliyi məhkəməsinin ittihamını xatırladan müəllif o zamankı Türkiyədə ədalətin, ədliyyə sisteminin və demokratiyanın nə vəziyyətdə olduğunu qeyd etmir. Türkiyə ordusunda fətullahçıların ifşa edilib "dağıdılmasına" gəlincə, türk ordusunun demokratiya meyarlarına zidd olaraq xalqa və dövlətə qəyyumluq etdiyi və bu hüququ saxlamağa çalışdığı sirr deyil. Fətullah Gülən vətəndaş kimi öz fikirlərini yaymaq, tərəfdar toplamaq və siyasətdə iştirak etmək hüququna malikdir. Radikalizmə yol vermədən, əsassız cəza tədbirlərinin tətbiqinə çağırmadan təkamül ilə gerçəkləşən hərəkata dəvət nə vaxtdan cinayət sayılır?

Əlbəttə ki, totalitar cəmiyyətlərdə, məsələn, vaxtilə Stalin Rusiyasında və indi Kim Çen İr Şimali Koreyasında olduğu kimi, rəsmi məfkurədən fərqli fikirlərin səsləndirilməsi yasaq edilir. Fəqət Türkiyə demokratik dövlətdir və bu növ sözlərə görə təqib və cəza demokratiyaya müxalifdir.

Türkiyə məhkəməsi Fətullah Gülənə qiyabi hökm oxuyub. Unutmayaq ki, həmin məhkəmənin qərarı ilə məktəb müntəxəbatında olan şeiri mitinqdə oxuduğuna görə indiki baş nazir Rəcəb Tayyib Ərdoğan da məhbəsə atılmışdı. Ərdoğan baş nazir olduqdan sonra Türkiyədə islam inqilabı baş verdimi? Qaldı ateizmlə terrorçuların eyniliyi tezisinə, bütün dünyada inanclılar və inancsızlar fərqli düşünənlərin yanlış olduqları fikrindədir və bu mövqe qanacaqlı olmasa da, cəzalanmağa da layiq deyil.

AKP-nin hakimiyyətə gəlməsi məsələsinə toxunan müəllif səslərin üçdə birini qazanmış partiyaya parlamentin üçdə ikisini verən sistemin heç də AKP deyil, dünyəvi və qərbyönümlü partiyalar tərəfindən təsbit edilməsini qeyd etmir. Əslində isə bu qüsurlu seçki sistemini millətçi, liberal və sosial-demokrat təmayüllü partiyalar tətbiq edib, uzun illər ondan bəhrələnmişdilər.

"Siyasi opponentlərin əmlakına əl qoymaq" məsələsi isə çox sadədir. Əgər bu əmlak qarət, reket, rüşvət və korrupsiya, "xortumlama" yolu ilə ələ keçirilmişdisə, bu haram malın haramzadalardan alınıb cəmiyyətin xidmətinə yönəldilməsi demokratik tədbir sayılmalıdır. Qaldı AKP-nin mülki sistemi, maliyyə və ədliyyə sistemini "öz adamları" ilə doldurmasına, hansı Qərb ölkəsində seçkilərdə şəksiz qələbə qazanmış partiya vəzifələri öz tərəfdarları ilə doldurmur? Odur ki, Ərdoğanın bu hərəkəti də Qərb demokratiyasına zidd deyil və buna görə həyəcan təbili çalmağa dəyməz.

Qəribədir, Fətullah Güləni müqəssir hesab edən məhkəmə qərarı yaxşı sayılırsa, ona bəraət verən məhkəmənin qərarı nə üçün pis sayılmalıdır? Kim məhkəmə qərarına qiymət vermək səlahiyyətinə malikdir?

"Gülən Türkiyəyə dönərsə, Türkiyə 1979-cu il Tehranına çevriləcək" fikri isə əsassızdır və bir daha göstərir ki, Qərb öz səhvlərindən nəticə çıxara bilmir. İranda islam inqilabının əsas səbəbi nə idi? Xalqın rejimdən narazılığı. Rejim hansı rejim idi? Xalqla hesablaşmayan, xalqı əzən, ölkəni talan edən şahənşahlıq. Özünə ifadə məcrası tapa bilməyən ictimai narazılıq dini məcraya yönəldi və islam inqilabı baş verdi. Bəs Türkiyədə hansı rejim mövcuddur? Demokratik, xalqla hesablaşan, seçkilərdə ondan səs alan hökumət xalqın istəyini nəzərə almağa çalışır. AKP-nin ikinci dəfə seçkilərdə qələbəsi göstərir ki, xalq ondan razıdır və ona inanır. Xalqın inandığı hakimiyyətə qarşı çıxmağa əsası varmı? Məncə, Türkiyədə indi başqa səpkili zorakılığa, yəni ordunun növbəti dəfə çevriliş edib xalqın seçdiyi hökuməti yıxmağına daha çox ehtimal var, nəinki islam inqilabının Türkiyədə baş verməsinə.

İslam demokratları Türkiyədə hakimiyyətdədirlər. Onlar dünya miqyaslı uğurlu bir ictimai təcrübə gerçəkləşdirirlər. Onlar islamın demokratiya ilə uzlaşa biləcəyini sübut edirlər. Ən mürtəce, zalım və qarətçi diktatorlara hamilik edən Qərb dövlətləri əgər bu təcrübəyə düşmən münasibət bəsləməyib ona dəstək versələr, bu təcrübənin uğur qazanmaq ehtimalı yüksələr. Cənab Rubinin məqaləsində isə mən islama və onun böyük demokratik potensialına şübhə görürəm ki, bunun da səbəbini demokratiyaya sədaqətdə yox, maddi marağı pərdələyən və güdən qərəzdə görürəm.

MEMUAR

RİÇARD NİKSON



ABŞ-ın 37-ci prezidenti – 1969-1974

SİYASƏTÇİ DÜŞÜNMƏYİ BACARMALIDIR

"Qələbələr və məğlubiyyətlər haqqında xatirələr" kitabından

Düşünmək fəaliyyəti siyasətçilər üçün xüsusi əhəmiyyətə malikdir. Ona görə ki, onların qərar və bəyanatlarının nə dərəcədə düşünülmüş olub-olmamasının həm onların özləri üçün, həm də xalqları üçün böyük nəticələri ola bilər. De Qoll bir dəfə demişdi: "Böyük işlər həyata keçirən adamlar həmişə düşünmək qabiliyyətləri ilə fərqlənmişlər. Onların, istisnasız olaraq, hamısı öz daxili aləmlərinə qapılmaq qabiliyyətinə malik olmuşlar".

Siyasətdə çox vaxt elə də olur ki, düşünən adam iş adamı ola bilmir, ya da əksinə. Bu mənada Vudro Vilsonu ideal saymaq olar. O həm yaradıcı düşüncə sahibi idi, həm də qətiyyətlə hərəkət edirdi. Siyasətçilər Anri Berqsonun bu tövsiyəsinə əməl etməlidirlər: "Düşünən adamlar kimi iş görün, iş adamları kimi düşünün."

Düşünmək insanın fərdi qabiliyyəti olduğuna görə necə, harada və nə zaman düşünmək haqqında ümumi qaydalar mövcud deyildir. Çörçill özünün məşhur nitqlərini diktə edəndə, təbii ki, zehni qabiliyyətinin ən çiçəklənən dövründə idi. 1954-cü ildə Vaşinqtona gələndə ondan soruşdum ki, diktofon-



1965-ci ildə təyyarə ilə Nyu-Yorkdan Los-Ancelesə uçurdum. Yanımda məşhur Brodvey rejissoru Alan Cey Lerner əyləşmişdi və biz bütün uçuş boyu onunla söhbət elədik. Soruşdum ki, tamaşalarının böyük uğur qazanmasının səbəbini nədə görür? Verdiyi cavab həmişəlik yaddaşıma həkk olundu. Dedi ki, beyin eynilə əzələ kimidir: işlətməsən zəifləyər, işlətsən, möhkəm və güclü olar. Lakin onu həddən çox işlətmək də yaramaz – yenə də zəifləyər. Belə hallarda ona istirahət vermək lazımdır ki, sonra yenə məhsuldar çalışa bilsin. Və mən onda başa düşdüm ki, o öz beynini məhz bu qayda ilə işlətdiyinə görə gözəl tamaşalar hazırlaya bilir.

Düşünmək insanın ən mühüm, lakin az istifadə olunan qabiliyyətidir. İnsan nə yolla olur olsun, zehni fəaliyyətdən qaçmaq istəyir. Ona görə ki, zehni fəaliyyət böyük səy tələb edir.



dan istifadə etmək barədə heç düşünübmü? Cavab verdi ki, amerikalı dostlarından biri ona belə bir "maşın" hədiyyə edib. Lakin o, çıxış və məqalələrini gözəl bir katibəyə diktə etməyə üstünlük verir. 1974-cü ildə Kremldə Brejnevlə görüşərkən, eyni sualı ona da verdim. Cavab, kiçik bir "həyati" təshih nəzərə alınmasa, eyni idi. Dedi ki, "gecə ağlıma bir şey gələndə, onu yazdırmaq üçün yanımda kiminsə olması rahatlıq yaradır."

Londan yaxınlığında Pol Qettinin qonağı olanda katibi mənə dedi ki, nahardan sonra Polun bir saat kitabxanaya çəkilib, tənha qalmaq adəti var. Orada o heç nə ilə məşğul olmur – kitab oxumur, telefonla danışmır, yazmır, yalnız düşünür. Sonra o, bir-iki nömrəyə zəng elətdirir və bununla da sərvəti bir neçə milyon artır. Varlanmaq üçün bunun nə qədər doğru yol olub-olmadığını söyləyə bilmərəm, ancaq sınaqdan keçirməyə dəyər.

Mənim tanıdığım nəhəng liderlər həmişə suala cavab verməmişdən əvvəl düşünməyə vaxt əldə etmək üçün hər kiçicik imkandan istifadə edirdilər. Misal üçün, de Qoll və Çjou Enlay görüşlərimiz zamanı mənimlə ingiliscə danışmasalar da, mənə məlum idi ki, onlar çox şeyi başa düşürlər. Lakin onların heç birisi heç vaxt tərcüməçi dediklərimi fransız və Çin dilinə tərcümə edəndə onu saxlamırdılar. Mənim söylədiklərimi anladıqlarına baxmayaraq, tərcüməçini öz doğma dillərində axıradək dinləyirdilər ki, dediklərim üzərində düşünmək üçün vaxt udsunlar.

Birisi gecə yarısı yaxşı düşünür, başqası – səhər tezdən. Bəziləri böyük otağa, digərləri kiçik otağa üstünlük verirlər. Kimisi yazı makinasında, yaxud kompüterdə işləməyi sevir, kimisi qələm və karandaşla. Mən içərisində diqqəti yayındıran əşyaların olmadığı kiçik kabinetə üstünlük verirəm. Əgər pəncərədən gözəl bir mənzərə açılırsa, mən ona arxamı çevirərək işləyirəm.

Ağ evdə keçirdiyim illərdə belə mən təkid edirdim ki, köməkçilərim mənə düşünməyə vaxt ayırsınlar. Mühüm çıxışlara və mətbuat konfranslarına hazırlaşmaq üçün iki-üç gün vaxt tələb edirdim. Hətta çıxış hazır olandan sonra belə, çıxışdan əvvəl yenə bir saat vaxt ayırırdım ki, fikirlərimi bir daha cəmləyim və ifadə tərzimi dəqiqləşdirim. Hətta çıxışa, yaxud hansısa tədbirə xüsusi hazırlaşmaq lazım gəlmədiyi təqdirdə belə, düşünmək üçün bir-iki saat vaxt ayırırdım.

Asudə vaxtlarımda mütaliə etməyi xoşlayıram. Ancaq çox ləng oxuyuram. Bu, qida qəbul edilməsinə bənzəyir. Yaxşı həzm olunmaqdan ötrü yavaş-yavaş çeynəyirsən. Ola bilsin ki, mütaliə həmin vaxt məni düşündürən məsələ ilə əlaqədar mənə bir fikir, ideya verməsin. Əslində, bəzən səni narahat edən məsələlərlə heç bir əlaqəsi olmayan ədəbiyyatı oxumaq daha faydalıdır. Ancaq zaman keçəcək, siz hansısa konkret problemi araşdıranda, həmin mütaliə köməyinizə gələcək, ideyalar, fikirlər doğuran amilə çevriləcəkdir. Bundan əlavə, mütaliə gələcəklə bağlı düşüncələrin formalaşması üçün misilsiz əhəmiyyətə malikdir.

Mütaliə hər hansı konkret bir problemin həlli zamanı daha geniş və dərindən düşünməyə imkan yaradır. Görüşdüyüm böyük şəxsiyyətlərin əksəriyyəti – Çörçill, de Qoll, de Qasperi, Menzis, İosida, Mao Tszedün, Çjou Enlay həris mütaliəçi idilər. Onların hər birisi uzaqgörən strateq idi. Bu keyfiyyəti onlar irsən yox, mütaliə və düşünmək sayəsində əldə etmişdilər.

Siyasətçi məlumat almaq üçün müxtəlif yollardan istifadə edir. Kitabları, qəzet və jurnal məqalələrini, məlumat bülletenlərini

misal göstərmək olar. Hansınasa üstünlük vermək mövzudan və zövqdən asılıdır. Bəziləri elə nahar zamanı da köməkçiləri ilə fikir mübadiləsi etməyi xoşlayırlar. Mən ideyaları, əsasən, başqa müəlliflərin əsərlərindən alıram. Ona görə yox ki, məclis sevən deyiləm, ona görə ki, məclisi işə qarışdırmaq istəmirəm. Bundan əlavə, bir çox zəkalı adamlar fikirlərini məhz yazıda daha yaxşı ifadə edirlər.

Söhbətə gəlincə, mən belə düşünürəm ki, iki nəfərlik söhbət qrup halında aparılan söhbətdən daha xeyirlidir. Lakin dialoq da qərar qəbul etməyin ilk mərhələsində faydalıdır. Qərar qəbul etmək zamanı gəldikdə isə, ən yaxşısı odur ki, tənha qalıb, problemi özün düşünəsən.

Əgər fikirlərinizdə bir nizam yaratmaq istərkən çətinliyə düşsəniz, vəziyyəti bir də təhlil edin. Bu zaman fasilə üçün bir fincan qəhvə içmək, gəzintiyə çıxmaq, pəncərədən bayıra baxmaq, bir-iki vərəq nəsə oxumaq faydalı olur. Lakin bu zaman ehtiyatlı olmaq lazımdır. Belə fasilələr problemdən yayınmağa yox, düşünmək prosesini fəallaşdırmağa xidmət etməlidir.

Lernerin dediyi kimi, beyni həddən çox yormaq olmaz. Ancaq, çox qəribədir ki, bəzən həddən artıq yorulanda daha yaxşı işləyirsən. Eyzenhaueri insult vurandan sonra mən vitse-prezident kimi Ağ evdə mətbuat konfransı keçirdim. Bu, ən ağır günlər idi və mən elə yorğun idim ki, mətbuat konfransı ərəfəsində çox həyəcan keçirirdim. Mətbuat konfransından sonra, elə həmin gün Si-Bi-Esin prezidenti Frenk Stenton mənə zəng edib bildirdi ki, mətbuat konfransının videoyazısını mənə göndərir, ona görə ki, onun fikrincə, bu mənim keçirdiyim bütün mətbuat konfranslarının ən yaxşısıdır. Mən ona yorğunluğum və buna görə də mətbuat konfransı ərəfəsində narahatlıq keçirdiyimi söyləyəndə, dedi ki, televiziya ilə çıxış edən adam yorğun olanda özünün ən yaxşı formasında olur. Ona görə ki, belə vəziyyətdə insan özünü maksimum səfərbər etməyə çalışır.

İnsan həyəcanlı, narahat olarkən düşünə bilmir. Bu heç də o demək deyildir ki, sevincək olmayasan, yaxud, qarşında duran problemin ciddiliyini dərk etməyəsən.

Ancaq vəziyyəti dəyişdirmək imkanı olmayanda həyəcan keçirmək bihudə işdir. 1970-ci ildə mən Kambocadakı kommunist hərbi bazalarına hücum barədə əmr verəndən sonra ölkədə gur etiraz nümayişləri keçirildi. Aparatımın bəzi əməkdaşları da qərarın düzgünlüyünə şübhə ilə yanaşmağa başladılar. Onlara dedim ki, Lutun arvadını xatırlayın, geriyə baxmayın (*İncildə yazıldığına görə, Lut peyğəmbər ailəsi ilə birlikdə küfr diyarına çevrilmiş Sədam şəhərini tərk edəndə arvadı Allahın əmrini pozaraq geriyə – Sədama baxdığına görə duz dirəyinə çevrilmişdi* – **tərcüməçi**). Mən həmin əmri verəndə əmin idim ki, doğru addım atıram. Lakin siz indi nə qədər haqlı olub-olmasanız da, keçmişə görə narahatsınızsa, bu gün, ya sabah qarşınıza çıxan problemlər haqqında normal düşünə bilməzsiniz.



Düşünmə prosesi qədər insanı yoran ikinci bir şey yoxdur. İki saatlıq gərgin iş mənə iki saat ərzində yüzlərlə adamın əlini sıxmaqdan, seçki kampaniyası zamanı gündə 15 dəfə çıxış etməkdən qat-qat çox yorğunluq gətirir. Düşünmə prosesi məhz ağır bir iş olduğuna görə biz ondan qaçmağa, min cür bəhanə ilə düşünməməyə çalışırıq. Ancaq zehni gərginliyin əvəzi də, sevinci də yüzqat olur.

İncəliklə düşünülmüş qərardan sonra gerçəkləşən işin sevincindən böyük fərəh ola bilməz. Son nəticə etibarilə düşünmə fəaliyyəti qətiyyətli və səmərəli hərəkət üçün zəruri olan daxili rahatlıq və zehni aydınlıq yaradır.

Rus dilindən tərcümə edəni:

Ə. Məmmədoğlu

YENİ BAXIŞ

Əlirza BALAYEV

DƏVƏ, YOXSA BURAZ ?

Qurandan جمل sözünün oxunuşu, mənası və tərcüməsi haqqında

Klassik Şərq, o cümlədən Azərbaycan poeziyasının bir özünəməxsusluğu da ondadır ki, müqəddəs kitabımız Qurani-kərimə, Məhəmməd peyğəmbərin ﷺ hədislərinə, dini rəvayətlərə istinad etmədən anlaşılması, şərh olunması qeyri-mümkündür. Xaqani, Nizami, Nəsimi, Şah İsmayıl Xətai, Füzuli, Seyid Əzim Şirvani və klassik poeziyamızın digər nümayəndələrinin yaradıcılığı buna misal ola bilər. Xüsusilə Nəsimi divanında çətin ki, Quranın hansısa bir ayəsinə isnad olunmamış bir qəzəl tapmaq mümkün olsun. Beləliklə də, klassik poeziya mütəxəssisi, oxucusu islam dininin mənbələri ilə tanış olmaq məqsədi güdməsə belə, klassik poeziya vasitəsilə onlar haqqında müəyyən məlumat almaq məcburiyyətində qalır.

Mənim mənsub olduğum filoloqlar nəsli də dini mənbələrlə tanış olmaq imkanına malik olmadığı dövrdə klassik poeziyanın tədrisi zamanı onlar haqqında müəyyən məlumat alırdı. Mir Cəlal, Kamil Mirbağırov, Əli Fəhmi kimi klassik ədəbiyyat biliciləri bizə oxuduqları mühazirələrdə, apardıqları xüsusi kurslarda və söhbətlərdə ayrı-ayrı şairlərin beytlərini dini mənbələrə əsaslanmaqla izah edirdilər. Oxuculara təqdim etdiyim bu yazı da Füzulinin bir beytinin şərhi ilə bağlı həmin tələbəlik illərində məndə doğan tərəddüdün uzun illər ərzində aydınlaşması ilə əlaqədardır.

Füzulinin

Bu qəmlər ki mənim vardır bəirin başına qoysan,
Çıxar kafər cəhənnəmdən, gülər əhli-əzab oynar

– beytinin şərhi belə idi: şair burada Qurandakı bir ayədən istifadə etmişdir. Həmin ayədə deyilir ki, dəvə iynənin gözündən keçənə qədər kafirlər cəhənnəmdə qalacaqlar; dəvə isə heç vaxt iynənin gözündən keçə bilməyəcəyinə görə cəhənnəm onların əbədi məskənidir. Lakin şairin qəm yükü o dərəcədə ağırdır ki, əgər bəirə ("bəir" ərəb dilində "dəvə" sözünün çoxlu sinonimlərindən biridir) yüklənsə, dəvə elə vəziyyətə düşər ki, iynənin gözündən keçər və əzab əhli olan kafirlər də cəhənnəmdən xilas olub sevinərlər.

Ayədə obrazlılıq vardır. Lakin elə Şərq poeziyasının timsalında öyrənmişdik ki, hər hansı məcaz əşya və hadisələrin şüurda təsəvvür edilə bilən qarşılıqlı əlaqələri nəticəsində yaranmış olur. Belə olan halda, iynə gözü hara, dəvə hara?!

Sonralar Quranın müxtəlif mətnləri ilə tanış olduqca həmin ayəyə (əl-Əraf surəsinin 40-cı ayəsi) diqqət yetirirdim. Q. S. Sablukovda: "Истинно, для тьехъ, которые считають наши знаменія ложными и величаются надъ ними, – для тьехъ не отверзутся врата небесныя: ***они тогда только войдутъ въ рай, когда верблюдъ пройдетъ въ игольныя уши.*** Такъ воздаемъ Мы законопрезрителямъ." İ. Y. Kraçkovskidə: "Поистине, те, которые считали ложью Наши знамения и превозносились над ними, не откроются им врата неба, ***и не войдут они в рай, пока не войдет верблюд в игольное ухо.*** Так воздаем Мы грешникам!" V. Poroxovada:

"Пред теми, кто знаменья
Наши ложными считает
И величается над ними,
Врата небесные не отворятся,
И в Рай им не войти,
Пока верблюд через игольное ушко не протеснится:
Так воздаем Мы нечестивым.

Rus dilində olduğu kimi, Quranın Azərbaycan dilinə tərcümələrində də ayə eynilə belədir. M. H. Mövlazadədə: "Ayələrimizi təkzib edən, Qurana iman gətirməyərək, təkəbbürlük edən kəslər üçün səmanın qapıları açılmaz. ***Dəvə iynənin gözündən keçməyincə onlar cənnətə daxil olmazlar. Yəni dəvə iynənin gözündən keçə bilmədiyi kimi onlar da cənnətə daxil olmazlar.*** Biz günahkarlara cənnətə daxil etməməklə belə əzab veririk." Z. Bünyadov, V. Məmmədəliyevdə: "Ayələrimizi yalan hesab edənlərə və onlara təkəbbürlə yanaşanlara göyün qapıları açılmaz (*əməlləri, duaları qəbul olunmaz, ruhları göyə qalxmaz*) ***və dəvə iynənin gözündən keçməyənə qədər onlar da cənnətə daxil ola bilməzlər***. Biz günahkarlara (*müşriklərə və kafirlərə*) belə cəza veririk!" Ayəyə Z. Bünyadov belə bir şərh də vermişdir: **"Müqayisə et: İncil, Matvey, XIX, 24; Luka, XVIII, 25; Mark, X, 25 – "Dəvə iynənin gözündən daha rahat keçə bilər, nəinki dövlətli Cənnətə."** N. Qasımoğluda: "Ayələrimizi dananların, təkəbbürlük edənlərin üzünə açılmaz səmanın qapıları, ***iynə deşiyindən dəvə keçməyincə cənnətə də girməz onlar.*** Beləcə cəzalandırırıq günah işlədənləri." M. Qəni oğlu, T.Bilal oğlunda: " Həqiqətən, Bizim ayələrimizi yalan hesab edib onlara təkəbbürlə yanaşanlar üçün səma qapıları açılmaz və ***dəvə iynə gözündən keçməyincə onlar cənnətə girə bilməzlər***. Günahkarları Biz beləcə cəzalandırırıq."

Quranın türk dilinə tərcümələri ilə tanış olmağa başlayanda da, əsasən, Quranın rus və Azərbaycan dillərinə tərcüməsində olduğu kimi, ayədəki sözün "dəvə" kimi tərcümə edildiyinin şahidi oldum. Misal üçün, Yaşar Kutluay və Asim Köksalın tərcüməsində: "Doğrusu ayetlerimizi yalan sayıp, onlara karşı büyüklük taslayanlara, goğün kapıları açılmaz; ***deve iğnenin deliğinden geçmedikce cennete de giremezler***. Suçluları böyle cezalandırırız" və s. Lakin bəzi tərcümələrdə fərqli yanaşmalarla qarşılaşdım. Məsələn, Ali Özekin (Hayreddin Karaman, Ali Turğut, Mustafa Çağırıcı, İbrahim Kafi Dönməz, Sadreddin Gümüşlə birlikdə) tərcüməsində ayədəki söz "dəvə" kimi tərcümə edilmiş ("Bizim ayetlerimizi yalanlayıp da onlara karşı kibirlenmek isteyenlər var ya, işte onlara gök kapıları açılmayacak ***ve onlar, deve igne deliğine girinceye kadar cennete giremeyeceklərdir***! Suçluları işte böyle cezalandırırız"), amma sonra belə izahat əlavə olunmuşdur: "Bu ayetteki "el-Cemel" kelimesini meşhur olmayan kıraat şekillerine dayanarak Kurandaki edebi tasvire uygun düşmediğini, deve ile igne deliği arasında bir münasebet bulunmadığını ileri sürenler vardır. Bunun için kelimenin diğer kıraattaki "kalın ip" yani, halat manasını tercih ederler. Ancak biz, umumun kıraatını göz önüne alarak "deve" manasını tercih ettik. Devenin, iğne deliginden geçmesi, imkansızlık bildirir. Manası, onlar asla cennete giremezler ve ya çok zor girerler, demektir." Bu izahatda ağlabatan heç nə yoxdur. "Halat"ın, yəni burazın iynə dəliyindən keçməsi imkansızlıq bildirmirmi? "Çoxluğun fikrini nəzərə alaraq "dəvə" mənasını seçdik" mülahizəsi də elmi məntiqlə bir araya sığmır. "Çoxluğun fikri ilə" çoxluğun fikri olduğuna görə razılaşmaq nə vaxtdan elmi yanaşma üsulu olub? Bu sözün bəziləri tərəfindən nəyə görə "kalın ip" tərcümə edilməsinə heç bir aydınlıq gətirilməməsi də məsələyə səthi yanaşıldığına (altı nəfərdən ibarət tərcüməçi qrupu tərəfindən) dəlalət edirdi.

Süleyman Atəşin tərcümələrində daha maraqlı məqamlarla rastlaşdım. Qeyd edim ki, onun tərcüməsi Türkiyədə iyirmi dəfədən çox nəşr olunmuşdur. Əvvəlki nəşrlərdə o, ayədəki sözü "halat" (buraz) kimi tərcümə edərək ("Bizim ayetlerimizi yalanlayan ve onlara inanmağa tenezzül etmeyenler var ya, işte onlara gök kapıları açılmayacak ve ***halat igne deliğinden keçinceye kadar onlar cennete giremeyeceklərdir***! İşte suçluları böyle cezalandırırız"), belə izah vermişdir: "Bazi müfessirler, ayetteki el-cemel kelimesini deve diye tefsir edip, "deve iğne deliğinden geçinceye kadar..." diye mana verirler. Fakat Kurandaki edebi tasviri ve ondaki sahne cüzlerinin nasıl bir bütün teşkil ettiğini inceleyenler, deve ile iğne arasında bir bağlantı görmezler. Ama kelimenin diğer anlamı olan kalın ip, yani halat manası alınırsa, halat ile iğne deliği arasında

ince bir uyumun varlığını görürler. Bu bakımından biz, bu anlamı tercih ettik."

Sonrakı nəşrlərdə Süleyman Atəş əvvəlki tərcüməsindən imtina edərək, "dəvə" sözünü işlətmiş ("Bizim ayetlerimizi yalanlayan ve onlara inanmağa tenezzül etmeyenler var ya, işte onlara gök kapıları açılmayacak ve ***deve igne deliğinden keçinceye kadar onlar cennete giremeyeceklərdir***! İşte suçluları böyle cezalandırırız"), səbəbini də belə izah etmişdir: "Daha önceki baskılarda ayetin arapca aslındaki el-Cemel kelimesini İbni Abbasın tefsirine dayanarak el-Cümmel (halat) diye tercüme etmiştik. ***İğne deliği ile halat arasındaki ilgi bu manayı tercih edişimize sebep olmuştur.*** (*Kursiv bizimdir* – **müəllif**). Fakat sonradan İncilde de: " Deve iğne deliğinden geçinceye kadar, yalanlayıcıların gök kapılarından geçemeyecekleri" mealinde bir ayetin bulunduğunu görünce cumhurun benimsediği manaya dönmeyi gerekli gördük." Süleyman Atəşin qənaətinə görə, əgər İncildəki ayədə də dəvənin iynənin gözündən keçməsindən bəhs olunursa, deməli, Qurandakı eyni yazılış şəklinə (جمل) malik sözün də "cəməl" (dəvə), yaxud "cümməl" (buraz) kimi oxunması üstündəki mübahisəyə son qoymaq olar. Görünür, Z. Bünyadov da V. Məmmədəliyevlə birlikdə tərcümə etdiyi Quran mətninə yazdığı şərhlərdə "dəvə" sözü ilə əlaqədar doğa biləcək sualı qabaqlayaraq, İncildə də müvafiq ayədə dəvədən bəhs olunduğunu qəsdən oxucuların nəzərinə çatdırmışdır. İncilə istinad mühüm arqumentdir və mübahisəni bitmiş hesab etmək olardı, əgər bir təsadüf (bəlkə də mübhəm bir qanunauyğunluq) olmasaydı...

Henri Fildinqin "Cozef Endrüs və onun dostu Abraham Adamsın macəralarının tarixi" romanını mütaliə edərkən, bir fraqment diqqətimi cəlb etdi. Pastor (protestant keşişi) Adams Cozeflə söhbətində deyir: " Mənə həmişə aydın olmuşdur ki, gəmi burazının - ***yeri gəlmişkən, bu söz bizim "dəvə" kimi tərcümə etdiyimiz sözün daha düzgün tərcüməsidir - (kursiv bizimdir - Ə.B.)*** iynənin gözündən keçməsi daha asan olar, nəinki varlının cənnətə girməsi." (Генри Филдинг. Избранные произведения. В 2-х т. Т. 1, М.: 1954, с.641).

Məlumdur ki, burada Quranın 7-ci surəsinin 40-cı ayəsinə oxşar İncil ayəsindən söhbət gedir və ən əvvəl aydın olan odur ki, xristian ilahiyyatçıları arasında da "dəvə" obrazına şübhə ilə yanaçıb, onu qəbul etməyənlər vardır. Daha sonra qarşıya müşkül bir sual çıxır: hansı dildən edilmiş tərcümədən söhbət gedir ki, o dildə də, ərəb dilində olduğu kimi, yazılışı eyni olan bir söz müxtəlif oxunuşu etibarilə həm "dəvə", həm də "buraz" mənasını verir? Bu sualın cavabı ilə əlaqədar mülahizəmi oxuculara təqdim edirəm.

Məlum olduğu kimi, Bibliyanın İncil (Əhdi-cədiq) hissəsi qədim yunan dilində yazılmışdır. Bibliyanın Əhdi-ətiq (Tövrat və s.) hissəsi isə qədim yəhudi, qismən arami dilində (arami dili qədim yəhudi dilini sıxışdırıb aradan çıxardıqdan sonra) yazılmışdır.

Aramilər Ərəbistan yarımadasında yaşamış köçəri sami tayfaları idi. Ehtimala görə, ərəb xalqının təşəkkülündə əsas rol oynamış qədim sami tayfaları hələ e. ə. 2-ci minillikdə Ərəbistan yarımadasında yaşayırdılar. Belə fikir də mövcuddur ki, e. ə. təqribən 1-ci minilliyin əvvəllərində Cənubi Sami qrupunun şimal yarımqrupu (lihyani, səmud və başqa tayfalar) ərəblər adı altında birləşmişlər.

Arami dili Yaxın və Orta Şərqdə beynəlxalq dil olmuşdur. Arami dili Sami dillərinin qərb, ərəb dili cənub qrupuna daxildir. Ərəb yazısı arami yazısının əsasında yaradılmışdır. Arami yazısında yalnız samit səsləri ifadə edən hərflər var idi.

Səmavi kitablar üçün ehkamların oxşarlığı və bu ehkamların bu və ya digər şəkildə bir səmavi kitabdan digərinə keçməsi səciyyəvidir. Arami dilində də "dəvə" və "buraz" sözlərinin ərəb dilində olduğu kimi eyni yazılışda ifadə edildiyini və Tövratdan İncilə "dəvə" şəklində keçdiyini ehtimal etmək olar. Əgər ərəblərin məişətində dəvə yox, dənizçilik və gəmiçilik əsas yer tutsaydı, çox güman ki, ayədəki sözü də "əl-cəməl" yox, "əl-cümməl" oxuyardılar. Hər halda, Fildinqin keşiş Abraham Adamsın dili ilə ifadə etdiyi mülahizəsini nəzərə almamaq düzgün olmazdı. Və düşünürəm ki, ayədəki جمل sözünün məhz "cümməl" kimi oxunaraq "buraz" kimi anlaşılması və tərcümə olunması həqiqətə daha uyğundur.



Nərgiz Bayramova

1989-cu ildə Bakıda anadan olmuşdur. 2006-cı ildə Sabunçu rayonundakı H. Ağayevdiyev adına 113 nömrəli məktəbi bitirmişdir. Hazırda Xəzər Universitetinin Humanitar və sosial elmlər fakültəsinin I kurs tələbəsidir.

Sənli xəyalla

(mənsur şeir)

Bu yağmurlu axşam düşüncələrimin qarışdığı bir vaxtda yadıma yenə sən düşürsən. Sənli xəyallar məni bir nöqtədən uzanan, sonu isə bəlli olmayan bir şüa tək uzaqlara aparır. Elə bir uzaqlara ki, orada yağışlı bir gecədə üz-üzə dayanıb, yağışın sevgi dolu damlalarında islanan, payızın sərin mehində üşüyən, lakin bir-birinin qəlbində sonsuz istilik tapan iki aşiq - sən və mən varıq. Buz kimi əllərimi ovucuna aldığını, yağış damlalarının islatdığı saçlarımı oxşamağını və gözlərində parlayan odlu məhəbbətini duymaq necə də gözəldir!

Qəlbində bəslədiyin hisslərindən doğularaq, dodaqlarında səslənəm o xoş sözlərin mənə hər şeyi unutdurur. Sanki bu həyatda heç nə yoxdur. Var olan yalnız sən, mən və tükənməyən məhəbbətimizdir. O məhəbbət ki, illər boyu xəyallarda qurduğumuz, hətta nə vaxtsa baş tutacağına inam belə bəsləmədiyimiz görüşü bu gün bizə bir gerçəklik kimi yaşadır. Əlindən tutub, yağmurlu havada sənlə birlikdə bu sahildə addımlamaq, sahili döyəcləyərək öz sevgisindən bəhs edən ləpələrin həssas uğultusunu dinləmək, sənin varlığını və mənim varlığımda yenidən canlandığını bilmək mənə bu dünyanın ən şirin nemətı olan əvəzsiz xoşbəxtliyi bəxş edir.

Kaş ki, birləşən əllərimiz və qəlblərimiz bir-birindən heç vaxt ayrılmaya...Kaş ki, sonu bəlli olmayan bu sahil kimi yağmurlu gecədəki bu görüşümüzün də sonu olmaya... Amma heyif, heyif ki, hər şeyin bir sonu olduğu kimi, bu görüşün də sonu olacaq. Və o zaman məni bu xəyaldan sənin isti nəfəsin yox, payızın sərin küləyi oyadacaq...

Gəl, hardasan, ana?

Son sözün oldu: "gələcəyəm,
O köhnə komamıza dönəcəyəm.
Ömürlük getmirəm,
Bir aya qayıdıram..."
Gəl, hardasan, anam, gəl!

"Dalımca ağlama" – dedin,
"Göz yaşlarını axıtma" – dedin,
"Ümidini üzmə, məni gözlə" – dedin.
Gəl, hardasan, anam, gəl!

Gör o vaxtdan nə qədər keçib...
Ay gəlib il olub.
Gözlərim qəmlə dolub,
Gəl, hardasan, anam, gəl!

Gözlərim daima
Yoldadır, yolda...
Hələ də səbr edib
Səni gözləyirəm,
Gəl, hardasan, anam, gəl!

Deyirəm: "Elə bir gün gələr,
Mənim də anam gələr.
Məni qoynuna alıb
Yenə də layla çalar."
Gəl, hardasan, anam, gəl

Darıxmışam sənincün,
O şirin laylan üçün,
O isti qucaq üçün,
Gəl, gəl, hardasan, anam, gəl!

YUMOR

AŞIQƏLƏRİN PSİXOROBOTU

Keçən dəfə aşiqləri öz dilləri ilə quru yuyub yaş sərdik. İndi növbə aşiqələrindi. Azərbaycan kişisinin sevdiyi qadının zahiri parametrləri hər kəsə bəllidi. Boyu sərv ağacı, saçı bulud kimidi. "Zülfünün küfrü imanlara rəxnə salır" (Füzuli). Yer kürəsinin işıqlandırılması məsələsində astronomik obyektlərlə konflikti var: üzü o qədər işıqlıdır ki, gecələr Aya deyir, sən çıxma, mən çıxacam, gündüzlər də həmin sözləri nöqtəsinə-vergülünə toxunmadan Günə deyir. Yeriyəndə yerə naz eləyir, güləndə gülü xəcil eləyir. Comolunqmanın zirvəsindəki qar kimi ağ üzünə baxanda Ay, qar üstünə qan dammış kimi al yanağına baxanda Şəkinin Qızıləhmədi alması, şəvə kimi qara saçlarına baxanda kömür, sözlərinin şirinliyini görəndə şəkər az qalır xəcalətindən yerə girə, bir də çıxmaya. Ağzı elə dardı ki, orta statistik qoşa badam sığışmır. Bəzən ağzının var olub-olmadığı da mübahisə predmeti olur. Adam az qalır çobanyastığı götürüb ləçəklərini bir-bir qopara-qopara fal açsın: ağzı var, yoxdu, var, yoxdu... Nəsimi uzun araşdırmalardan sonra yekun qənaətini bildirib. Amma yenə gümanla şübhə arasında qalmaq təhlükəsi olduğu görünür: "Çün yəqin bildi Nəsimi ağzının var olduğun, Ol yəqini sən güman etmək dilərsən, etməgil..." Beli elə incədir ki, yazıçı Anar "Yaxşı padşahın nağılı"nda yazdığı kimi, bir gilə gilas yeyəndə boylu (hamilə) kimi görünür... Gələk əsas məsələyə - psixoloji portretə:



Vasif SADIQLI

Qəddardır, aşiqi çox alçaldır, onu adam yerinə qoymur:

Zülfütək ayağını qoymaz öpəm nigarım,
Yoxdu onun yanında bir tükcə etibarım.

Aşiqə imkan vermir ki, ağız açıb nəsə desin. Bir sözlə, fikrini azad ifadə etmə, söz azadlığı əlindən alınıb:

Getdim alagözlü yarla danışım,
Dedi: "Oğlan, dur get, söz vaxti deyil".

Ağıllı və tədbirli, hər şeyin çəmini bilən-dir. Çox ağır yatan ("Qalada yatmış idim, top atdılar, oyanmadım") Azərbaycan kişisini oyatmağın asan yolunu bilir:

Evlərinin dalı təpə,
Yağış gələr səpə-səpə
Oyadaram öpə-öpə...

Bürokratdı, oğlanı get-gələ salır:

Get, ay batandan sonra gəl, ay oğlan,
Nənəm yatandan sonra gəl, ay oğlan!

Aşiq kimi o da qarğış eləməkdə mahirdi. Gül ağzını açanda dediyi qarğışlar həyata keçsə, kainatda ekoloji tarazlıq pozula, ölkə florası yaman günə düşə bilər:

Qarğamışam, bənövşələr bitməsin,
Xar gəlibən gül yanından ötməsin,
Səni görüm əlin yara yetməsin...

Aşiqdən fərqli olaraq ictimai rəyə tüpürmək belə istəmir:

Su gəlir, arxa nə var?
Dolanır, çarxa nə var?

Məndən öz yarım küsüb,
Bilmirəm, xalxa nə var?

Qoşa xalları barədə irad tutanlara sərt təpki göstərir:

Xalxa nə borcdu?
Belə düzdürmüşəm...

Simicdir, öpüşü oğru dərziyə sap verən kimi verir:

Dedim: "Bir busə ver, bir busə ver, ay qız,
amandı.
"Dedi: "Vermərəm, vermərəm, vermərəm,
məgər talandı?"

Yad sözünə inanıb üz döndərə bilər (aşiqin sözlərindən bəlli olur):

Sən ki belə deyildin,
Səni bir öyrədən var...

Aşiqlər can verməkdə ustad olduğu kimi, bu da qan tökməkdə, can almaqda ustadı:

Nola qan tökməkdə mahir olsa çeşmin
mərdümü?
Nütfeyi-Qabildürür, qəmzən kimi ustadı
var.

(Gözlərinin qan tökməkdə mahirliyi təəccüblü deyil, Qabil nəslindədir (Adəm peyğəmbərin oğlu Qabil ilk qatildir, öz qardaşını öldürüb).

Aşiq sevəndə pinti olur, aşiqəninsə, əksinə, səliqəliliyi artır. Hər yeri təmizləyəndən sonra hələ bir çıxıb JEK-in süpürməli olduğu, amma süpürmədiyi küçələrə də əl gəzdirir:

Küçələrə su səpmişəm,
Yar gələndə toz olmasın.

Sevəndə "çorta" da gedə bilər ki, bu da özünü dalğınlıq, səliqəsizlik şəklində büruzə verir:

Asta yeri kəmər düşər belindən...

Nədənsə, bulaq başı onun daş qəlbini yumşaldır. Orda könül verməyə...

Ay oğlan, boyu bəstə,
Gəl gedək bulaq üstə,
Sən məndən könül istə,
Mən deyim gözüm üstə.

...Acığı tutanda isə hətta busə verməyə razı olur:

Başına döndüyüm, gözləri
xəndan,
Turunclar baş verib, çıxıb
yaxandan,
Dedim: "Gözəl, bir busə ver o
xaldan",
Acıqlandı dedi: "Al, sənə qurban!"

(Mahnı mətnləri "Azərbaycan xalq mahnıları" ikicildliyindən götürülüb).

LENT.AZ

SAĞLAMLIQ

UŞAQ XƏSTƏLİYİ VƏ SİQARET

Uşaqlarda müəyyən xəstəliklərin yaranması ataların siqaret çəkməsi ilə bağlıdır


Dünyaya övlad gətirmək istəyən ataların öz sağlamlığına diqqət yetirməsi olduqca vacibdir. Vaşinqton Dövlət Universitetindən Mətyu Anvey və Ratgers Universitetindən Sinsia Daniels bu nəticəyə gəliblər.

Mətyu Anvey siçanlar üzərində təcrübə aparıb; məlum olub ki, erkək siçan bağçalarda istifadə olunan kimyəvi maddələrin təsirinə məruz qalırsa, ondan olan siçanlar müxtəlif xəstəliklərə düçar olurlar: ya böyrəkləri xəstələnir, ya prostat vəzisi həddən artıq böyüyür, ya da sonsuzluq əmələ gəlir. Təcrübə zamanı dünyanın hər yerində meyvələrə vurulan kimyəvi maddələrdən istifadə olunub.

Əvvəlki araşdırmalar da atanın siqaret çəkməsiylə uşağın xəstəliyi arasında əlaqə olduğunu sübut edib. Məsələn, uşaqda fəqərələrin parçalanması, damağın dərinliyi kimi problemlər atanın tütünə aludəçiliyi ilə izah olunur.

Alimlər onu da aşkar ediblər ki, Vyetnam müharibəsi zamanı defolutentlərin təsir elədiyi Amerika əsgərlərinin uşaqlarında xəstəlik olub. Defolutent yarpaqların məhvi üçün istifadə olunan kimyəvi maddədir. Bu dərmanın uchatından xəstə doğulan uşaqlara 1997-ci ildə kompensasiya verildi. Çünki defolutentin təsir etdiyi əsgərlərin uşaqlarında bel sümükləri düzgün formalaşmır.

Hamıya məlumdur ki, hamilə qadınlar spirtli içki qəbul edə və siqaret çəkə bilməzlər. İndi o da məlumdur ki, həddən artıq alkoqol qəbul edən kişilərdə spermalar həddən artıq çox və anormal olur. Bu anormallıq uşaqlarda ürək xəstəliyinə səbəb olur. Təcrübə aparanlardan Daniels deyir ki, cavanların yerinə olsa, nə pivə, nə də



araq içərdi.

Daniels onu da deyir ki, ataların sağlamlığının uşağa təsiri hələ kifayət qədər öyrənilməyib. Bu məsələni araşdırmaq istəyənlərə isə hücum var. Çünki cəmiyyət uşaqların xəstəliklərinin atalarla bağlı olması fikrini rədd edir, ya da təşvişlə qarşılayır.

Enerji çatışmazlığı sindromu

İnsanlarda enerjinin çatışmazlığı orqanizmin müvafiq hissələrinin zəifləməsi ilə müşayiət olunur və itirilmiş enerjinin kompensasiyası üçün əlavə axın əmələ gətirir. Əlavə enerji axını orqanizmin daha çox yüklənməsinə səbəb olur.

Adətən, anemiya qanazlığı hesab edilir. Ancaq bu, psixi enerjinin zəifləməsinin nəticəsidir... Psixi enerjinin artması sadə vasitələrlə əldə olunur. Bu zaman yaxınlıqda enerjini mənimsəyən kiminsə olmaması vacibdir. Enerjini şüurlu və şüursuz surətdə mənimsəmək mümkündür. Hər bir qıcıqlanma, ruhdan düşmə enerjini udacaq.

Enerjinin başqa adama ötürülməsi könüllü (digərinin taleyində iştirak) olur. Odur ki, dərdlərindən şikayət edən adama ağılla canıyananlıq göstərmək lazımdır. Şüurlu vampirizm daha təhlükəlidir, çünki adam başa düşür ki, başqası ilə söhbət, yaxud digər kontakt növü ona yaxşı təsir bağışlayır.

Bunu izah edək. Belə ki, yaxşı olan hər şeyi büruzə vermək, bölüşmək adamların vərdişinə çevrilib, pis şeyləri isə daxilimizdə gizlətməyə çalışırıq. Karmik vampirlər, yəni öz vampir karmasını keçənlər azdır, başqalarından müntəzəm (bəzən hər gün) enerji alınmasına möhtac olan energetik vampirlərə daha çox təsadüf edilir.

Energetikaya qoşulma vasitələri rəhm, günah hissi oyatmaqdan energetik terrora qədər genişdir: təhqir, fitnə, qorxu. Energetik vampirizmə "dəb ifadələr" də aiddir. İnsanların fəaliyyəti, partlayışlar, zəlzələlər, sürüşmələr zamanı əmələ gəlmiş çatlardan paralel aləmlər bizim məkana bağlana bilər. Əgər məkanda çat varsa, onun yaxınlığında olan adamlardan, heyvanlardan, bitkilərdən enerji çəkiləcək.

Hər hansı üzvdən enerjinin sovrulması, yaxud itkisi zamanı onu enerji ilə təmin etmək məqsədəuyğun deyil. Bu, dibi olmayan qaba su tökməkdir. Belə addım hətta təhlükəlidir, əlavə enerji axını qonşu üzvə daxil olarsa, onu içəridən qapayar və müalicə çox çətinləşər.

Lətafət FƏRNİ

SON SƏHİFƏ

NOBEL MÜKAFATI LAUREATLARI – 2008

Sülh mükafatı Marti Ahtisaariyə verildi



2008-ci il üçün Nobel sülh mükafatını BMT Baş katibinin Kosovo münaqişəsinin həlli üzrə xüsusi nümayəndəsi, Finlandiyanın sabiq prezidenti Marti Ahtisaari alıb. Cənab Ahtisaari bu mükafata beynəlxalq münaqişələrin həllində göstərdiyi səylərə görə layiq görülüb.

M. Ahtisaarinin Kosovo münaqişəsinin tənzimlənməsi ilə bağlı planını Rusiya və Çinin etirazına baxmayaraq, ABŞ və Avropa Birliyi dəstəkləyib.

Dəyəri 1 milyon 400 min dollar olan Nobel mükafatına bu il 197 iddiaçı var idi. Ötən il bu mükafatı ABŞ-ın sabiq vitse-prezidenti Albert Qor alıb.

İqtisadiyyat üzrə Nobel mükafatını Amerika alimi aldı



İqtisadiyyat üzrə 2008-ci ilin Nobel mükafatı Amerika alimi Pol Kruqmana verilmişdir. İsveç Kral Akademiyası onu azad ticarət və qloballaşma sahəsində tədqiqatlarına görə mükafatlandırıb.

İqtisadiyyat üzrə Nobel mükafatı hər il təqdim olunan mükafatın sonuncu nominasiyasıdır.

İqtisadiyyat sahəsində Nobel mükafatını – başqa sahələr üzrə verilən mükafatlardan fərqli olaraq – vaxtilə dinamit maqnatı hesab edilən Nobel təsis etməyib. Bu mükafatı 40 il əvvəl İsveçin Mərkəzi bankı təsis edib və ona Nobelin adını verib.

MARAQLI MƏLUMATLAR

* Dünyada ən böyük dərə ABŞ-ın qərbində yerləşən Böyük dərədir, uzunluğu 320 *km*-dən çox, eni 20 *km*-ə qədər, dərinliyi 1.800 *m*-ə qədərdir.

* Dünyada ən dərin mağara Avstriyadakı Tantal mağarasıdır, 1220 *m* dərinlikdə yerləşir.

* Ən çox püskürən vulkanları olan yer Malay arxipelaqındakı Böyük və Kiçik Zond adalarıdır, burada 95 püskürən vulkan vardır.

* Dünyada ən çox zəlzələ Çilidə olur – ildə minə qədər zəlzələ baş verir.

* Ən böyük meteorit Cənubi Amerikadadır, ağırlığı 60 tondur.

* Danışanda ən az söz işlədən xalq Mərkəzi Afrika qəbilələrindən biridir. Onlar cəmi 26 söz işlədir.

* Ən hündür adam türk kəndlisi olmuşdur – 2 *m* 95 *sm*.

* Ən ağır adam Amerikada yaşamışdır – 502 *kq*. Ən yüngül yaşlı adamın çəkisi 9,5 *kq* olmuşdur.

* Dünyada ən qoca adam İranda yaşayırdı. Bu, 190 yaşlı Seyid Əbu Talib Müsavi idi.

* Ən şən xalq İndoneziyadakı piqmeylərdir.

* Ən böyük ailə Şuysk qəzasındakı kəndli Fyodor Vasilyevin ailəsi olmuşdur.O iki dəfə evlənmiş və iki arvaddan 87 uşağı olmuşdur.

* 1950-ci ildə Amerikada vəfat etmiş Lançest dünyada ən uzun saqqallı adam olmuşdur. Onun 7 *m* 4 *sm* uzunluğunda saqqalı var idi. O, öz saqqalını kostyumunun xüsusi tikilmiş cibində gəzdirirmiş.

Hazırlayanı:
Nurlan Məmmədrzayev,
İqtisadiyyat və menecment fakültəsinin tələbəsi

UŞAQ DÜNYASI

"Xəzər Xəbər" toplusunun məktəblilər üçün əlavəsi

AMERİKA "DÜNYA" MƏKTƏBLİLƏRİNİN GÖZÜ ILƏ...





"Dünya" məktəbi artıq bir neçə ildir ki, öz şagirdlərini dünyanın müxtəlif olkələrinə səyahətə göndərir. 2007- ci ildə İngiltərə, 2008 - ci ildə isə Amerika Birləşmiş Ştatları və yenidən İngiltərə kimi böyük ölkələrə iki və üç həftəlik səyahət! Görüşlər, həyəcanlar....Bu dəfə də uşaqların səfər təəssüratlarını sizinlə bölüşmək qərarına gəldik. Daha bir yazını təqdim edirik.



BİR DAHA QAYITMAQ ARZUSU İLƏ



Hərdən rəfiqələrim Amerika haqqında danışanda, bu söhbətlər mənə heç maraqlı gəlmirdi. Mən daha çox qədim və tarixi Avropa şəhərlərini sevirdim. Ancaq tanışlarımdan biri Amerikaya səfərindən sonra təəssüratını bizimlə bölüşəndə, məndə də bu uzaq ölkəni görmək həvəsi oyandı. Ancaq bunun tezliklə ola biləcəyini ağlıma belə gətirmirdim. Və bir gün müəlliməm yayda Amerikaya gedəcəyimizi bildirəndə həddən artıq sevindim. Amma yenə bu səfərə möcüzə kimi baxırdım.

Beş saatlıq uçuşdan sonra Almaniyada Frankfurt hava limanına endik. Düzü, mən hələ belə səliqəli hava limanı görməmişdim. Qarşıda bizi hələ 9 saatlıq uçuş gözləyirdi. Amma mən vaxtın necə keçdiyinin fərqinə varmadım, sanki zaman çox sürətlə keçirdi. Yol yoldaşım mənə həmsöhbət olur, hərdən təyyarə titrəyən zaman məni sakitləşdirirdi. Beləcə, Amerikaya çatdıq.

Uçuş 1 gün tezləşdirildiyinə görə ilk iki günü dincəldik, eyni zamanda bizə orada bələdçilik edəcək yoldaşlarımızla tanış olduq.

Ertəsi gün Vaşinqtonu gəzdik. Şəhərdə hər şeydən əvvəl təmizlik və sakitlik diqqəti cəlb edirdi. Insanlar şəhərin istənilən yerində özlərini olduqca sərbəst hiss edirdilər. Bizim şəhərdən fərqli olaraq, maşın uğultuları və hay-küydən qulaq tutulmurdu, hər yerdə insana rahatlıq gətirən sakitlik hökm sürürdü. Iş saatlarından sonra şəhər sakinləri çəmənliyin üzərinə atılır, həzin musiqi sədaları altında günün stressindən azad olurdular. Əlbəttə, sakinlərin küçədə özlərini evlərindəki kimi rahat hiss etmələri onların geyim tərzində və bəzi bizə yad hərəkətlərində də özünü göstərirdi.

Vaşinqtonun arxitekturasında bir qəribəlik var idi. Şəhərin rəmzləri sayılan tikililərin yerləşdirilməsi ölkənin dini rəmzini - xaçı əks etdirirdi. Ertəsi gün artıq dil kurslarını keçəcəyimiz mərkəzə gəldim. Bu səfəri fərqləndirən əsas cəhətlərdən biri ingilis dili ilə tam proffessional şəkildə məşğul olmağımız idi. Həftə içi günümüzün 4 saatı burada keçirdi. Həddindən artıq maraqlı insanlar olan müəllimlərimizlə çox mövzularda danışırdıq. Onlar bizimlə Amerika iqtisadiyyatından tutmuş müasir Amerika musiqisinə qədər müxtəlif mövzularda söhbətlər aparırdılar.

Nəhayət, səfərimizin ən ecazkar hissəsinə çatdıq. Bizim üçün ayrılmış maşınlarda Kanadadakı Niaqara şəlaləsinə yola düşdük.Yolüstü Baltimordakı məşhur akvariumda olduq. Ertəsi gün səhər saat 6-da artıq dünyanın ən əsrarəngiz şəlalələrindən birinin səsi ilə oyananda, "bunca yorğunluğa dəyərmiş" – deyə düşündüm.

Bura təkcə şəlalədən ibarət bir sahə deyildi, ətrafdakı parkda müxtəlif növ maraqlı əyləncə obyektləri fəaliyyət göstərirdi. Ən əsrarəngiz məqamlardan biri bir gözəlliyin iki nəhəng ölkəni necə ayırdığına tamaşa etmək idi. Xüsusi geyimlərlə şəlaləni aşağıdan yuxarıya da böyük həyəcanla seyr etdik.

Nyu -Yorka gedəndə də çox həyəcanlandım. "Azadlıq heykəli"nin yerləşdiyi adaya gedərkən məşhur Nyu-york mənzərəsi mənə yuxu kimi görünürdü.Time,s meydanında gəzərkən saatdan xəbərimiz olmasaydi, gecə olduğunu bilməzdik. Sonra qardaş Türkiyədən gəlib Nyu-york əhlini dadlı türk yeməkləri ilə sevindirən qardaşlarımızla söhbət də mənə xüsusi zövq verdi.

Yaxınlarımdan uzaq düşmək bir qədər çətin olsa da, yorucu yollar bizə əziyyət versə də, mən Amerikadan oraya bir daha qayıtmaq arzusu ilə ayrıldım.

Ülkər QARACALI,
XI sinif şagirdi

BUDƏFƏKİ HƏMSÖHBƏTLƏRİMİZ

III b sinif şagirdləridir. Bu sinif haqqında bütün xoş sözləri demək olar; dərsə münasibətləri, fəallıqları ilə həmişə öndə olan bu balaca "şeytanlar"ı hamı sevir. Onları sizinlə də tanış etmək qərarına gəldik. Balacalara müxtəlif suallar verdik və maraqlı cavablar aldıq.

-Uşaqlar, ən çox xətrinizə dəyən, sizi incidən nə olur?

Murad: - *Məni ən çox incidən ermənilərin torpaqlarımızın bir hissəsini işğal etməsidir.*

Elçin: - *Atamla anam arasında söz olanda, pis oluram.*

Sürəyya: - *Rəfiqəm mənim haqqımda pis danışanda, məni sındıranda inciyirəm.*

Nihad: - *Sirrimi açıb kiməsə deyəndə, sonradan çox pis oluram.*

Ülvi: - *Ölkəmiz haqqında pis düşünən olanda, xətrimə dəyir.*

Firudin: - *Pis qiymətlər alanda...*

Kamran: - *Kimsə ailəm haqqında pis danışanda, xətrimə dəyir...*

Nahid: - *Mənim xətrimə heç nə dəymir.*

-Sizcə, valideynləriniz sizə lazımi qaydada diqqət yetirə bilirlər? Onlardan ən çox hansı diqqəti, qayğını görmək istərdiniz?

Elçin: - *Mən bir söz deyəndə, istəyirəm mənə qulaq assınlar.*

Nuranə: - *İstədiyim hər şeyi mənə alsınlar... Valideynlərimdən bunu gözləyirəm.*

Nəzrin: - *Valideynlərim nə istəsəm mənimçün alırlar. Amma fikirləşirəm ki, mən onlar üçün heç nə edə bilmirəm.*

Ülvi: - *İstəyirəm ki, valideynlərim hər şeydə mənə dəstək olsunlar.*

Nigar: - *Məni istədiyim yerə aparmırlar. Elə həmişə "olmaz" deyirlər.*

Fərid: - *Heyvanlara əl vurmaq istəyəndə qoymurlar. Mən pişiyi sevirəm, amma anam ona əl vurmağa qoymur.*

Zülfi: - *Sərbəst olmaq istəyirəm, amma icazə vermirlər.*

Nihad: - *Mən istəyirəm ki, atam anama ad günündə gül bağışlasın, amma ona heç nə almır.*

Fatimə: - *Mən valideynlərimdən heç nə istəmirəm.*

-Uşaqlar, necə düşünürsünüz, xoşbəxt insan kimə deyilir?

Elçin: -*Ata-anası olan insan xoşbəxtdir.*

Nuranə: - *Hər insanın öz xoşbəxtliyi var, amma özü bunu bilmir.*

Nəzrin: - *Ürəyi təmiz və mehriban olan insan xoşbəxtdir.*

Kamran: - *Adamları güldürməyi bacaran, onlara yaxşılıq edən insan xoşbəxtdir.*

Sürəyya: - *Məncə ailəsi olan insanlar özünə xoşbəxt deyə bilər, ailəsiz insanlar xoşbəxt deyillər.*

Nigar: - *Mən də belə düşünürəm. Ailəsindən ayrılmayan insanlar xoşbəxtdirlər.*

Nihad: - *Bütün mehriban insanlar xoşbəxtdirlər. Amma hamı mehriban ola bilmir.*

Uşaqları dindirdi:
Şəhla Nəbiyeva,
məktəbin müəllimi

ƏDƏBİYYAT LÜĞƏTİ

Gəlin, öyrənək!

FABULA - bədii əsərdə təsvir olunan hadisə və əhvalatların ardıcıl verilməsi. Bu xüsusiyyətinə görə fabula süjetlə uyğunluq təşkil edir. Əslində, fabula bədii əsərdəki ümumi süjetin açılmasında hadisələrin ardıcıllığını müəyyənləşdirən amildir.

FACİƏ - dramatik əsərlərin növlərindən biri. İlk dəfə "tragediya"adı ilə Yunanıstanda yaranmışdır. Yunanca "traqos"-keçi, "ode"-nəğmə sözlərinin birləşməsindən "tragediya" alınıb. Yunanlar öz tanrılarından birinin – Dionisinin şərəfinə kəsdikləri keçi və oxuduqları nəğmələrə uyğun olaraq şənliyə "Tragediya" adı vermişlər.

Faciə isə ərəb sözüdür və mənası "kədərli", "qəmli", "dəhşətli hadisə", "dəhşətli əhvalat" deməkdir. Faciənin sonunda qəhrəman həlak olsa da, oxucu onun başladığı işin, arzu və istəyinin həyata keçəcəyinə inanır. Azərbaycan ədəbiyyatında ilk faciə N. Vəzirovun "Müsibəti - Fəxrəddin" əsəridir.

FANTASTİKA - möcüzəli, fövqəladə təsvirlərin real düşüncələr əsasında bədii əsərdə əks etdirilməsi.

FELYETON - ictimai həyatdakı mənfilikləri tənqid edən, lağa qoyan ədəbi janr. Felyeton həm şeirlə, həm də nəsrlə yazılır. Felyetonda tənqid hədəfinin ünvanı, əsasən, konkret olur.

FƏXRİYYƏ - Orta yüzillik Şərq, eləcə də Azərbaycan lirik şeir növlərindən biri. Əsasən məsnəvi və qəzəl formasında yazılır. Fəxriyyədə şair istedad, bilik və qabiliyyətini tərifləyir. Bəzən şair bir başqasının mədhinə həsr etdiyi fəxriyyənin içində də özünü tərifləyir.

FƏRD - Azərbaycan, özbək, uyğur, türkmən və b. xalqların klassik ədəbiyyatında ən kiçik həcmli şeir. Fərd məzmunca dərin mənalı, bədii cəhətdən yüksək səviyyəli olan bir beytdən ibarət müstəqil əsər hesab olunur.

FİLOLOGİYA - şifahi və yazılı abidələri, həmin abidələrin (əsərlərin) məzmun, dil, üslub, poetik xüsusiyyətlərini öyrənən elm.

FORMALİZM - bədii əsərlərin məzmun və ideyasını inkar edən, yalnız formanı əsas götürən ədəbi cərəyan.

FUTURİZM - özünü gələcəyin sənəti kimi tanıtmağa cəhd edən formalist cərəyan. 20-ci yüzilliyin əvvəllərində İtaliyada meydana çıxan bu cərəyanın tərəfdarları-futuristlər işğalçılıq müharibələrini tərifləyir, əməkçi insanlara "qara camaat"adıyla nifrət edirdilər. Futuristlər klassik ədəbi irsin əhəmiyyətini inkar edir, şeirin və dilin hamı tərəfindən başa düşülən qayda-qanunlarına qarşı çıxaraq, özlərinin qondarma dil qaydalarını, mənasız, gurultulu ifadələri şeirə gətirməyə səy edirdilər.

Hazırlayanı:
Bəhlul ABDULLA

KİTABXANAMIZIN YENİ KİTABLARI



Ağamalı F. XVIII əsrin II yarısı-XIX əsrin əvvəllərində Quzey Azərbaycan xanlıqlarında sosial-iqtisadi münasibətlər. – Bakı: Bakı Universiteti, 2007. – 280 s.



Eyvazov B. Şuşa kurortu. – 2-ci nəşr. – Bakı: Nurlan, 2008. – 72 s.

Ağamalı F. Harmonik inkişafın yüksəliş dövrü. – Bakı: Ozan, 2008. – 277 s.



Русско-персидский словарь (36 тыс. слов) / сост. И.К.Овчинникова. – Москва: Советская энциклопедия, 2005. – 1091 с.
– ISBN 964-5955-82-3





Azərbaycan və Dünya Ticarət Təşkilatı = Azerbaijan and WTO. – Bakı: Iqtisadi Tədqiqatlar Mərkəzi, 2006. – 123 s. – ISBN 9952-8057-5-6



Русско-персидский словарь / сост. М.Е. Радовильский. – Москва: Советская энциклопедия, 2005. – 1091 с. – ISBN 964-6006-15-9



Gündüz O. Mobil telefonların özəllikləri. Mobil telefon və kompüter. – Bakı: "Multimedia" Mərkəzi, 2007. – 239 s. – ISBN 978-9952-8094-7-3

Hazırlayanı: Lyudmila SOTOVA

KHAZAR VIEW

XƏZƏR XƏBƏR

Öz ciddi məzmunu və rəngarəngliyi ilə seçilən
"Xəzər Xəbər" toplusu yenə sizin görüşünüzə gəlib.
"Xəzər Xəbər"də Azərbaycan, rus, ingilis,
türk və başqa dillərdə dərc olunan maraqlı xəbərlər,
ali və orta təhsil haqqında yeniliklər,
poeziya və ədəbiyyat səhifələri, məzəli əhvalatlar,
elmi əsərlər, siyasətə, mədəniyyətə, idmana aid yazılar, qəribə
sevgi macəraları, uşaq yaradıcılığı, maraqlı yarışlar -
müsabiqələr və s. könlünüzcə olacaq.
"Xəzər Xəbər" gənclərin və oxuyan,
düşünən hər kəsin dərgisidir.
"Xəzər Xəbər"i İNTERNET vasitəsilə dünyanın
hər yerində oxuyurlar.
"Xəzər Xəbər"i siz də oxuyun!
"Xəzər Xəbər"ə siz də yazın!
"Xəzər Xəbər"i şəhərimizdəki qəzet-jurnal
köşklərindən ala bilərsiniz.
"Xəzər Xəbər" ayda iki dəfə çıxır.

Ünvan: Bakı şəhəri,
Məhsəti küçəsi, 11.
Əlaqə telefonları: 421-79-16
421-10-93.
E-mail: xazarxabar@khazar.org